RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 133 (9012) ŞƏNBƏ, 25 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Yanındayıq, Türkiyə!



## bp işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə başlayır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də bp qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə bp şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olundu.

bp-nin Azərbaycanda "yaşıl enerji" növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş-elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada bp ilə imzalanmış sənədin önəmi vurğulandı.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycan meşə yanğınlarına qarşı mübarizədə qardaş ölkəyə yenə də ən böyük dayaqdır

Bir millət, iki dövlət...
Bir-birinə dayaq, dəstək olan iki qardaş ölkə - Azərbaycan və Türkiyə...
Tarixi həmrəylik bu gün ən yüksək zirvəyə çatıb. Xalqlarımız ağrı-acılarını da, xoş günlərini də birlikdə yaşayır, birlikdə kədərlənib, birlikdə sevinirlər...
Və elə bütün çətinliklərə qarşı da daim çiyin-çiyinə mübarizə apararaq birliklərinin gücündən doğan əzmlə qalib gəlirlər...

### "Amfibiya" artıq meşə yanğınlarını söndürməyə başlayıb

Azərbaycan və Türkiyə bütün beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə hər zaman birlik nümayiş etdirərək, dövlətçiliyimizə, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birgə mübarizə aparırlar. Eyni zamanda bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması istiqamətində də bir-birilərinə dayaq, dəstək dururlar.

Hazırda da Azərbaycan dövləti Türkiyənin Muğla bölgəsində baş verən meşə yanğınları ilə bağlı yaşanan fəlakətin qarşısını almaq üçün qardaş ölkənin yanındadır və ona etibarlı dayaq olduğunu nümayiş etdirir.

→ 5



## Ərdoğan Azərbaycana təşəkkür etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Fövqəladə Hallar Nazirliyinin "BE-200ÇS" amfibiya tipli təyyarəsi qardaş Türkiyə Respublikasındakı meşə yanğınlarının söndürülməsi əməliyyatında iştirak edir.**

İyunun 24-də Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan FHN-in amfibiya təyyarəsinin heyət üzvləri ilə görüşüb, təşəkkürünü bildirib.



## Birinci vitse-prezident Mehriban Əliyeva Avropa və Dünya çempionatlarının mükafatçılarını təbrik edib



**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Avropa və Dünya çempionatlarının mükafatçılarını təbrik edib.**

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Yeniyetmələr və böyüklər arasında yaxın günlərdə keçirilmiş qılıncoynatma, bədii gimnastika, cüdo, güləş və karate üzrə Avropa çempionatlarının mükafatçısı olan bütün idmançılarımızı, həmçinin Dünya çempionatında qızıl medal qazanmış paraüzgüçülərimizi səmimi-qəlbdən təbrik edirəm. Sizin qələbəniz mükəmməl hazırlığın, məqsədyönlülüyün və iradənin əyani sübutudur. Hamınıza möhkəm cansağlığı, sevinc və yeni nailiyyətlər arzulayıram".



## İkitərəfli saziş Rusiya KİV-ində Ermənistanın anti-Azərbaycan siyasəti üçün ciddi problem yaradacaq

İkitərəfli saziş Rusiya KİV-ində Ermənistanın anti-Azərbaycan siyasəti üçün ciddi problem yaradacaq.

AZƏRTAC xəbər verir ki, iyunun 24-də Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri çərçivəsində "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Sazişdə dövlətlərin suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün pozulmasına qarşı yönəlmiş hərəkətlərin qarşılıqlı koordinasiyası, informasiya infrastrukturunun mühüm obyektlərinə kompüter hücumlarının qarşısının alınması, terrorizmin və terrorçu məqsədlərin təbliğinin, dövlətin daxili işlərinə qarışmağın və ictimai asayişın pozulmasının, milli, irqi və dini ayrı-seçkiliyin qızışdırılmasının, irqçiliyin, ksenofobiyanın, separatizmin və ekstremizmin, nifrət və ayrı-seçkilik, zorakılığa və qeyri-sabitlik təbliğinin qarşısının alınması, vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan və ya ağır nəticələr doğurmuş vəziyyətlər haqqında mötəbər məlumatlar adı ilə açıq-aşkar yalan məlumatların yayılmasının yolverilməzliyi və s. nəzərdə tutulur.

→ 2

## Zəngilanda icra olunan bərpa-quruculuq layihələri ilə tanışlıq



**Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloqların və siyasi şərhçilərin, habelə media nümayəndələrinin dünən Zəngilan rayonuna səfəri təşkil olunub. Səfər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə reallaşıb.**

→ 4

## "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 2754 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 14 iyul tarixli 2754 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 768) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Altıncı abzas ləğv edilsin.
2. Dördüncü və beşinci abzaslar müvafiq olaraq beşinci və altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2022-ci il*

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 106 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 106 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 174; 2002, № 1, maddə 71; 2004, № 4, maddə 282, № 7, maddə 566; 2005, № 8, maddə 733; 2007, № 12, maddə 1251; 2009, № 2, maddə 93; 2012, № 5, maddə 442; 2015, № 11, maddə 1301; 2016, № 12, maddə 2174; 2018, № 7 (II kitab), maddə 1597; 2020, № 1, maddə 33) 1-ci hissəsində "Hüquq ekspertizası" sözləri "Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2022-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Xalq şairi Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında sərəncamınızı böyük sevinc və qürur hissiylə qarşıladıq. Ulu Öndərimizin layiqli varisi kimi onun ədəbiyyatımıza daimi diqqətini və qayğısını XXI əsrdə uğurla davam etdirirsiniz.

Bu muzeyi zəngin mədəniyyət ocağı kimi təşkil etmək və yaşatmaq üçün əlimizdən gələni edəcəyik.

Ailəmizin adından, Yazıçılar Birliyi adından, şəxsən öz adımdan Sizə ən dərin və ən səmimi minnətdarlığımı bildirirəm.

Sağ olun, var olun!

*Hörmətlə,*

***Anar,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri***

## Rusiyanın xarici işlər naziri Şəhidlər xiyabanında Azərbaycanın qəhrəman övladlarının xatirəsini anıb



Azərbaycan Respublikasında səfərdə olan Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov iyunun 24-də Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb.

AZƏRTAC xəbər verir ki, Rusiyanın xarici işlər naziri "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.



## Eyni kökə və tarixə söykənən dostluq

### Özbəkistan Prezidenti Şavkat MİRZİYOYEV: "İlham Əliyevin tarixi səfəri bizim münasibətlərə yeni təkandır"

**Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri, qədim Şərqdə böyük sevgi və təmtəraqla qarşılanması, Ulu Öndərin əziz xatirəsinin məhəbbətlə yad edilməsi, adına parkın, meydanın və abidənin açılışı iki xalqın zəngin bağlılıqlarını növbəti dəfə göstərdi.**

İlham Əliyev Özbəkistana gələn rəsmi dövlət başçılarından daha böyük çoşqu və sevgi, daha dərin məhəbbətlə qarşılandı. Bu qarşılanma bir tərəfdən xalqlarımızın keçmişindən və ruhunun dərinliklərindən sızan səmimi münasibətlərin, digər tərəfdən isə Azərbaycan Prezidentinə və Ulu Öndərə sərgilənən sonsuz rəğbətin və misilsiz sevginin təzahürü idi.

Azərbaycan Prezidentinin Daşkənddə belə təmtəraqla qarşılanmasını dərk etmək, məsələnin əsl mahiyyətini anlamaq üçün bir qədər keçmişə qayıtmağa, müəyyən tarixi reallıqları yenidən nəzərdən keçirməyə ehtiyac duyulur. Təxminən 50 il geriyə dönək. O vaxt tələbə idik, Moskvada oxuyurduq. Həmin illər ermənilər konyakları, gürcülər ləhcələri və lətifələri ilə məşhur idilər. Bizi isə yalnız Ulu Öndər keçmiş siyasi büro üzvlüyünə namizəd seçildikdən sonra tanımağa başlamışdılar.

Yaxşı yadımdadır, gecə idi, imtahana hazırlaşırdıq, böyük rus şairi Aleksandr Blokun həyatını oxuyanda bir fakta heyrətləndim. Blok Mendeleyevin qızı Lyubaya aşiq olur, amma qorxur ki, onu rədd edəcəklər. Görüşürlər. Lyuba Aleksandrın sevgisini qəbul edir. O zaman A. Blok qıza cibindən üstündə belə bir yazı olan kağız verir: "Xahiş edirəm ki, mənim ölümümdə heç kimi müqəssir saymayasınız. Bir Allaha və bir də İsa kilsəsinə inanıram!" Necə fikirləşirsiniz, heyrətamiz ifadə deyilmi? Allaha inancı hamımız başa düşürük, lakin dünyadan köçməyə hazırlaşan bir kəsin İsa kilsəsini Allaha tay tutmasını anlamaq bir qədər çətindir. Ona görə də sessiyadan sonra qatara minib Piterə - ozamankı Leninqrada yola düşdük.

Şəhərə çatan kimi İsa kilsəsinin yanına gəldik. Dahi rus şairinin son nəfəsində ruhən sığınmaq istədiyi bu məbəd bizi gözəlliyi və monumental görkəmi ilə heyrətə gətirdi. Bina, doğrudan da, elə əzəmətli və elə möhtəşəm idi ki, onun yanında özümü çox kiçik hiss etdim. İkinci bir tərəfdən, daxilən məyus oldum ki, niyə Şərqdə, lap elə Azərbaycanda belə möhtəşəm tikililər yoxdur?

Ötən əsrin 80-ci illərində Bakıda ən hündür bina İnşaatçılar prospektindəki 16 mərtəbəli yaşayış evi idi. Bizə elə hündür gəlirdi ki, yanından keçəndə başımız gicəllənirdi. O zaman nə Şamaxıdakı Cümə məscidi bərpa olunmuşdu, nə də Bibiheybət məscidi tikilmişdi. Bakı da köhnə Bakı idi, kimə desəydin ki, nə vaxtsa bu şəhərdə göydələnlərin ucbatından ayaq atıb yerimək mümkün olmayacaq, səni topa qoyub atardılar. Ona görə də biz 30-50 il əvvəl İsa kilsəsi kimi abidələrin yanında qəribsəyir, mənəvi əziyyət çəkirdik və sözün həqiqi mənasında, sıxılırdıq.

Bir il ruhuma yaxın olan Şərqi anlamaq üçün tələbə praktikasında Özbəkistanı seçdim. Bizi qarşılamağa gələn Daşkənd şəhər komsomol təşkilatının təmsilçisi əlini uzadıb "Bahadur" deyəndə sevindim ki, adımı da bilirlər. Amma sən demə, o, özünü təqdim edirmiş. Bir xeyli güldük. Qəzetlərindən biri məni təcrübə keçməyə qəbul etdi, maaş ayırdılar, aspirantlar yataqxanasında otaq verdilər. Dedilər ki, tələbəsən, deməli qonağımızsan, bütün Özbəkistanı gəzib görməlisən. Orada olduğum 40 gün ərzində Xivədə, Buxarada, Səmərqənddə oldum və gördüklərimə heyran qaldım. Yaşı minilliklərlə ölçülən möhtəşəm abidələr, qədim və böyük mədəniyyət, filisoflar, şairlər, alimlər və münəccimlər İsa kilsəsini gözümdən saldılar. O 40 günün hər birini sanki bir nağıl kimi yaşadım və başa düşdüm ki, keçmiş ittifaqda ən zəngin tarix və mədəniyyət Şərq xalqlarına məxsusdur.

Bütün bunlardan sonra Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistanda qarşılanma mərasimlərinin incəliklərinə bir daha toxunmaq olar. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Ulu Öndərin adına açılan meydandakı çıxışında qeyd etdi ki, bütün Özbəkistan Heydər Əliyevi cəsarətli, tarixin mürəkkəb anlarında çiyinlərinə ən ağır yük götürə bilən və Azərbaycanın müasir dövlətçiliyinin əsaslarını yaradan nadir şəxsiyyət kimi tanıyır.

Ulu Öndər nəinki Azərbaycanın, Özbəkistanın, bütün Şərqin qürur mənbəyidir. Özbək xalqı heç vaxt Qdlyanın pambıq oyununu unutmayacaq, onun özbək xalqına tutduğu divan yaddan çıxmayacaq. Bu barədə danışılmasa da, iki xalqın erməni millətçilərinə qarşı mübarizəsində oxşar səhifələr kifayət qədərdir.

Özbəkistanın dövlət başçısı Ulu Öndəri belə dəyərləndirdi: "Heydər Əliyev əsl vətənpərvər idi. Onun adının özü rəmzi məna daşıyır. Məlum olduğu kimi, Heydər "yolgöstərən" deməkdir. O, həqiqətən, öz xalqının yolgöstərəni, lideri idi".

1996-cı ildə Heydər Əliyevin Daşkənddə Teymurilər Tarixi Muzeyini ziyarət edərkən Fəxri qonaqlar kitabında yazdığı qeyd bu gün də bütün Özbəkistan üçün əziz xatirədir: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun". Bu, Ulu Öndərin necə yüksək mənəviyyata sahib olduğunu və Əmir Teymurun irsinə necə müdrik qiymət verdiyini göstərir.

Azərbaycan Prezidenti Daşkənddə həm də İkinci Qarabağ savaşında qalib gələn Ali Baş Komandan, sərkərdə kimi qarşılandı. Çünkü bu Qələbə bütün türk dünyasının zəfəridir. Bu zəfərin müəllifi isə 200 illik cəfəng uydurmalara söykənən erməni təbliğatını darmadağın və bütün müsahibələrində erməni millətçilərinə dəstək verən əcnəbi telekanalların təmsilçilərini məğlub edən İlham Əliyevdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri bölgədəki mövcud vəziyyət və gələcək sülh sazişinin imzalanması məsələlərini müzakirə ediblər





İyunun 24-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (XİN) Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri Ceyhun Bayramov və Sergey Lavrov arasında görüş olub.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlərin arasında təkbətək başlayan görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlığın bir çox istiqamətlərdə inkişaf etdiyini, ikitərəfli əməkdaşlığın uğurla həyata keçirildiyini vurğulayıb. O, cari ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğuna istinad edərək, il ərzində bu münasibətlə bir sıra tədbirlərin həyata keçirildiyini məmnunluqla söyləyib.

Nazir Sergey Lavrov qonaqpərvərliyə görə təşəkkür edib. O, Azərbaycan Respublikası Prezidenti ilə keçirilmiş görüşə və aparılmış müzakirələrə istinad edib. Cari il ərzində azərbaycanlı həmkarı ilə 4 görüş keçirdiyini bildirən S.Lavrov bunun münasibətlərin intensivliyinin göstəricisi olduğunu bildirib. O, bu il qeyd olunan 30 illiyin əlaqələrin bütün istiqamətlər üzrə icmalı üçün yaxşı fürsət yaratdığını və bu xüsusda keçirilən tədbirlərin təqdirəlayiq olduğunu söyləyib.

Tərəflər ikitərəfli gündəliyin bir sıra istiqamətlərində, o cümlədən siyasi, iqtisadi, ticarət, humanitar, təhsil, mədəniyyət sahələrində, əməkdaşlıq münasibətlərinin inkişafı perspektivlərini, habelə ikitərəfli müqavilə hüquqi bazasının möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycan üçün hazırda prioritet məsələ olan azad edilmiş ərazilərin bərpa və quruculuğu işləri barədə məlumat verib. Bu xüsusda Rusiya şirkətlərinin prosesdə iştirak marağı yüksək qiymətləndirilib.

Görüş zamanı tərəflər bölgədə mövcud cari vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, bölgədə münasibətlərin normallaşdırılması və sülhün təmin olunması istiqamətində addımların atılması, o cümlədən sərhədlərin delimitasiyası üzrə komissiyaların fəaliyyəti, bütün kommunikasiyaların açılması, gələcək sülh sazişinin imzalanması məsələləri ətrafında geniş müzakirələr aparıblar.

Görüşün sonunda xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

## Bakıda Azərbaycan və Rusiya xarici işlər nazirlərinin birgə mətbuat konfransı keçirilib

İyunun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun və Rusiyanın xarici işlər naziri Sergey Lavrovun görüşündən sonra birgə mətbuat konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, nazir Ceyhun Bayramov Azərbaycan və Rusiya arasında münasibətlərin mehriban qonşuluq və möhkəm dostluq ənənələrinə malik olduğunu qeyd edib. İki ölkə arasında bütün istiqamətlər üzrə müsbət dinamikanın müşahidə olunduğunu vurğulayan Azərbaycanın xarici işlər naziri deyib ki, ölkələrimizin möhkəm strateji əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan və Rusiya arasında indiyədək çoxsaylı müqavilələr, sazişlər və müxtəlif sənədlər imzalanıb. Dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə mühüm sənədlərdəndir.

Müxtəlif istiqamətlərdə əməkdaşlığın uğurla davam etdiyini diqqətə çatdıran Azərbaycanın xarici işlər naziri qeyd edib ki, iqtisadi əlaqələrin pandemiyadan sonra daha da artması ticari dövriyyənin artımına səbəb olub.

Hökumətlərarası komissiyanın fəaliyyətini yüksək qiymətləndirən Azərbaycanın xarici işlər naziri nəqliyyat-kommunikasiya sahəsində və digər sahələrdə layihələrin uğurla davam etdirildiyini vurğulayıb. Azərbaycanla Ermənistan arasında münaqişənin artıq həll olunduğunu qeyd edən nazir deyib: "Azərbaycan regionda sülhün və təhlükəsizliyin tərəfdarıdır. Bu məsələdə Rusiyanın dəstəyini yüksək qiymətləndiririk. Üçtərəfli Bəyanat təhlükəsizliyə təminat verir. Əvvəlki vəziyyətə baxdıqda hazırda müəyyən məsələlərdə pozitiv məqamlar var. Qərarlar çətin verilsə də, bunlar müsbət planda ardıcıl və davamlı olmalıdır. 2022-ci ilin fevral ayında Azərbaycan növbəti addımı ataraq Ermənistan tərəfinə ölkələrarası münasibətlərin bərpası ilə bağlı 5 əsas prinsipi təqdim edib. Bu gün biz müzakirələrdə Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması istiqamətində ən çox kommunikasiya əlaqələrinin açılması məsələsində irəliləyiş əldə edə bildik".

Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin sürətlə apardığını diqqətə çatdıran Ceyhun Bayramov deyib ki, Rusiya şirkətlərinin bu prosesdə iştirakında maraqlıyıq. Dəmir yolu relsləri Rusiyanın hesabına əldə edilir. İnanırıq ki, bu sahədə əməkdaşlığımız davam edəcək. XİN rəhbərinin sözlərinə görə, Xəzər dənizi münasibətlərdə mühüm element kimi çıxış edir. Rusiya və Azərbaycan ratifikasiya məsələsini keçiblər. Bu sahədə normativ aktlar hazırlanıb. Bu yaxınlarda Türkmənistanda keçiriləcək sammitdə Xəzərin ratifikasiyası təsdiqlənəcək.

"Azərbaycan beynəlxalq təhlükəsizlik sahəsində qonşu ölkələrlə əməkdaşlıq etməyə hər zaman hazırdır", - deyə azərbaycanlı nazir əlavə edib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov diqqətə çatdırıb ki, Rusiya və Azərbaycanı çoxəsrlik tellər bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin fevralında Rusiyaya səfəri iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açıb. Rusiya ilə Azərbaycan arasında müttəfiqlik əməkdaşlığı haqqında Bəyannamə xarici siyasətin əlaqələndirilməsini və hərbi-siyasi əməkdaşlığın gücləndirilməsini özündə ehtiva edir.

Hökumətlərarası komissiyanın fəaliyyətindən danışan rusiyalı nazir bildirib ki, müharibədən sonra sərhədlərin delimitasiyası ilə bağlı işlər gedir. Ermənistan tərəfi sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın ikinci görüşündə iştiraka hazır olduğunu təsdiq edib. "Bizim müntəzəm əlaqələrimiz davam edir. Biz iki həftə sonra Peterburqda yenidən görüşəcək və bu məsələlərlə bağlı müzakirələr aparacağıq", - deyə Sergey Lavrov vurğulayıb.

Sergey Lavrov Rusiyanın Azərbaycanla diplomatik dialoqun inkişaf yolundan razı olduğunu söyləyib: "Ümumilikdə regional və beynəlxalq gündəmdə duran məsələlərlə bağlı Azərbaycanla dialoqumuz var. Bizim dostluğumuz nümunədir. Bura bizim BMT, ATƏT-dəki əməkdaşlığımız da daxildir. Biz Azərbaycanla diplomatik dialoqun inkişafı yolundan razıyıq, hansı ki, bu, ikitərəfli iqtisadi, humanitar və digər əlaqələri, xarici siyasət sahəsində əməkdaşlığı tamamlamağa kömək edir. Bugünkü müzakirə mövzusu beynəlxalq informasiya təhlükəsizliyi ilə bağlı idi və biz bununla bağlı sənədi imzaladıq".

Rusiya və Azərbaycan arasında əməkdaşlığın getdikcə genişləndiyini vurğulayan Sergey Lavrov əlaqələrin bütün sahələrdə inkişaf etdiyini diqqətə çatdırıb. Xəzərin statusu ilə bağlı danışan rusiyalı nazir bildirib ki, tezliklə Aşqabadda bu məsələ öz təsdiqini tapacaq.

Sergey Lavrov həmçinin işğaldan azad edilmiş ərazilərin bərpasında Rusiyanın iştirak etməyə hazır olduğunu bildirib.

Görüşdə BMT və ATƏT-in Minsk qrupu ilə bağlı müzakirələrin aparıldığını qeyd edən Rusiyanın xarici işlər naziri artıq Minsk qrupunun fəaliyyətinin itirildiyini də vurğulayıb. Nazir əlavə edib ki, humanitar sahədə də əməkdaşlıq genişləndirilir və yeni layihələr reallaşdırılır.

Nazirlər jurnalistlərin suallarını cavablandırıblar.

## İkitərəfli saziş Rusiya KİV-ində Ermənistanın anti-Azərbaycan siyasəti üçün ciddi problem yaradacaq

İkitərəfli saziş Rusiya KİV-ində Ermənistanın anti-Azərbaycan siyasəti üçün ciddi problem yaradacaq.

AZƏRTAC xəbər verir ki, iyunun 24-də Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri çərçivəsində "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Sazişdə dövlətlərin suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün pozulmasına qarşı yönəlmiş hərəkətlərin qarşılıqlı koordinasiyası, informasiya infrastrukturunun mühüm obyektlərinə kompüter hücumlarının qarşısının alınması, terrorizmin və terrorçu məqsədlərin təbliğinin, dövlətin daxili işlərinə qarışmağın və ictimai asayışın pozulmasının, milli, irqi və dini ayrı-seçkiliyin qızışdırılmasının, irqçiliyin, ksenofobiyanın, separatizmin və ekstremizmin, nifrət və ayrı-seçkilik, zorakılığa və qeyri-sabitlik təbliğinin qarşısının alınması, vətəndaşların həyatına və təhlükəsizliyinə təhdid yaradan və ya ağır nəticələr doğurmuş vəziyyətlər haqqında mötəbər məlumatlar adı ilə açıq-aşkar yalan məlumatların yayılmasının yolverilməzliyi və s. nəzərdə tutulur.

Bu sazişin imzalanması təhlükəsizliyin və sabitliyin dəstəklənməsi, suverenliyə, ərazi bütövlüyünə, təhlükəsizliyə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, mübahisələrin və münaqişələrin dinc yolla nizamlanması, güc və hədə tətbiq edilməməsi, bir-birinin daxili işlərinə qarışmamaq, insan haqlarına və əsas azadlıqlara riayət edilməsi məqsədlərindən irəli gəlib.

Saziş öz növbəsində informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməklə separatizmə, ekstremizmə qarşı mübarizə, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq üçün zəmin olacaq. Qarabağda nizamlanmış münaqişə, regionda sülhün və sabitliyin bərqərar olması ilə əlaqədar Rusiya KİV-ində yer alan qərəzli informasiyaların qarşısının alınması baxımından bu saziş Azərbaycan üçün böyük aktuallıq kəsb edir.

# Milli Məclisin Sədri Sahibə Qafarova TÜRK PA-nın XI iclası çərçivəsində Qırğızıstan Prezidenti ilə görüşdə iştirak edib



**İyunun 24-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində bu ölkənin Prezidenti Sadır Japarov TÜRK PA-nın XI iclasında iştirak edən parlament nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb.**



Görüşdə Milli Məclisin Sədri, Azərbaycan nümayəndə heyətinin başçısı Sahibə Qafarova da iştirak edib.

Spikerləri səmimiyyətlə salamlayan Sadır Japarov ölkəsinin TÜRK PA çərçivəsində əməkdaşlığa və bu təşkilatın fəaliyyətinə böyük əhəmiyyət verdiyini bildirib.

Görüşdə TÜRK PA-nın əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilib, təşkilatın gələcək fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Çolpon-Ata şəhərində keçirilən TÜRK PA-nın XI iclası təşkilatın gələcək inkişafına, qurum çərçivəsində əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcək.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının XI iclasında çıxış edib

İyunun 24-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının XI iclası keçirilib. İclasda Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edib.




Həm şura iclasının, həm də plenar iclasın gündəliyinin kifayət qədər zəngin olduğunu deyən spiker qeyd edib ki, bu da TÜRK PA çərçivəsində əməkdaşlığın səviyyəsinin mühüm göstəricisidir. O, TÜRK PA-nın Assambleya



Şurasında və plenar iclasında aparılacaq fikir mübadiləsinin və qəbul ediləcək qərarların təşkilatın məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə inandığını bildirib. Azərbaycan Respublikası Milli Məclisinin TÜRK PA çərçivəsində fəaliyyətinə böyük əhəmiyyət verdiyini deyən Sahibə Qafarova əlavə edib ki, parlamentimiz bu istiqamətdə öz hərtərəfli dəstəyini əsirgəmir.

Milli Məclisin Sədri qeyd edib ki, ötən dövr ərzində üzv parlamentlərimiz arasında əməkdaşlıq daha da inkişaf edib. TÜRK PA-nın ayrı-ayrı komissiyalarının iclaslarının və ölkələrimizi maraqlandıran müxtəlif mövzulara həsr edilmiş seminarların keçirilməsi, model qanunların işlənib hazırlanması, seçki və referendum müşahidə missiyalarının təşkili, beynəlxalq parlament təşkilatları çərçivəsində birgə fəaliyyətimiz səmərəli əməkdaşlığımızın mühüm göstəriciləridir.

Azərbaycan parlamentinin Sədri çıxışında xatırladıb ki, X plenar iclasdan ötən dövr ərzində Milli Məclisin təşkilatçılığı ilə Bakı şəhərində TÜRK PA-nın komissiya iclası, seminarı, konfrans və görüşləri keçirilib. Digər tərəfdən, üzv parlamentlərin nümayəndələri ölkəmizin 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərinə, o cümlədən Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər. Qardaş ölkələrimizin parlament üzvləri Ermənistanın işğalı dövründə törədilmiş vəhşiliklərin və dağıntıların şahidi olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərdə ölkəmiz tərəfindən həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri ilə də tanış olublar.

Milli Məclisin Sədri əmin olduğunu bildirib ki, Assambleyanın tarixi, mədəni və mənəvi köklərlə bir-birinə bağlı olan xalqlarımızın və ölkələrimizin ortaq maraqlarına dəyərli töhfələrini davam etdirməsi naminə birgə səylərimizi bundan sonra da əsirgəməyəcəyik.

Şura iclasında həmçinin Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanov və Qırğız Respublikası Joqorku Keneşinin Sədri Talant Mamıtov çıxış edərək müzakirə olunan mövzularla bağlı fikirlərini bildiriblər.

***R.CƏFƏRLİ, "Azərbaycan"***

# Qırğızıstanın Çolpon-Ata şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının XI plenar iclası keçirilib

İyunun 24-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) XI plenar iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova iclasda "Parlament diplomatiyası - etimad və tərəfdaşlığın əsası" mövzusunda çıxış edib.







Spiker Sahibə Qafarova deyib ki, XI plenar iclas illər ərzində formalaşmış qlobal dünya nizamını və beynəlxalq qaydaları təhdid edən gərgin geosiyasi proseslərin cərəyan etdiyi bir vaxta təsadüf edir. Şübhəsiz ki, bu proseslər dost və qardaş ölkələrimizi və xalqlarımızı narahat edir və qüvvələrimizin birləşdirilməsi zərurətini ortaya qoyur. Digər tərəfdən, türk dövlətlərinin coğrafi-strateji əhəmiyyətinin artması da türk xalqları ailəsinin üzvləri arasında sıx birliyin və əməkdaşlığın vacibliyini ön sıraya çıxarır. Milli Məclisin Sədri qeyd edib ki, türk dünyasının mütəfəkkir insanlarını həmişə düşündürən türk həmrəyliyi ideyası artıq real cizgilər kəsb etməyə başlayıb.Türk birliyinin inkişafına həm hökumət, həm də parlament səviyyəsində dəstək verilməsi xalqlarımızın mütəşəkkil bir qüvvə kimi formalaşmasında mühüm rol oynayır. İnamla söyləmək olar ki, eyni kökdən olan, ortaq milli-mədəni dəyərləri bölüşən dost və qardaş xalqlarımızın parlament məclisinin fəaliyyətinin əhəmiyyəti ölkələrimizin yerləşdiyi məkanın hüdudlarından kənara çıxır.

Sahibə Qafarova çıxışında deyib ki, müasir dövrdə parlament diplomatiyasının mühüm aləti olan beynəlxalq parlament təşkilatları geniş problemlər kompleksinə uzlaşdırılmış yanaşmaların hazırlanmasına xidmət edən səmərəli vasitədir. Parlament birlikləri dövlətlərin siyasi birliyinin təmin edilməsinin işlək mexanizmi hesab edilməlidir. Bu baxımdan Türk Dövlətləri Parlament Assambleyasının ötən illər ərzində fəaliyyəti ilə xalqlarımızı bir-birinə daha sıx bağlamağın səmərəli bir vasitəsi kimi özünü göstərə bildiyini qeyd edən Milli Məclis Sədrinin sözlərinə görə, assambleya çərçivəsində iş birliyi dövlətlərimiz arasında siyasi, iqtisadi, mədəni və digər əlaqələrin daha da dərinləşməsinə, etimad və tərəfdaşlıq mühitinin inkişafına şərait yaradıb.

Daha sonra Sahibə Qafarova bildirib ki, TÜRK PA-nın üzvü olan parlamentlərimiz öz ölkələrinin siyasi və ictimai həyatında önəmli rol oynayırlar. Onların vahid bir assambleya halında fəaliyyəti ümumi məqsədlərimizin həyata keçirilməsi yollarına dair baxışların formalaşmasına kömək göstərir. TÜRK PA tarix, dil və mədəniyyət ümumiliyinin verdiyi imkanlardan istifadə edərək xalqlarımızın və dövlətlərimizin ortaq problemlərinin açıq müzakirəsi üçün əlverişli siyasi dialoq forumu rolunu oynayır.

Digər tərəfdən, assambleyanın fəaliyyəti ölkələrimiz arasında siyasi, ticarət-iqtisadi və mədəni-humanitar əlaqələrin inkişafında parlament diplomatiyasının zəngin potensialından istifadə edilməsinə yol açır. Spiker Sahibə Qafarova qeyd edib ki, parlamentlərimizin də dəstəyi ilə həyata keçirilmiş və həyata keçirilməsi nəzərdə tutulan ikitərəfli və çoxtərəfli iqtisadi layihələr, qarşılıqlı sərmayə qoyuluşları vahid nəqliyyat-kommunikasiya sisteminin qurulmasına, iqtisadi, energetika, maliyyə, kredit-bank infrastrukturunun yaradılmasına və digər məqsədlərin reallaşmasına yönəlib. O bildirib ki, Xəzər neftini və qazını dünya bazarlarına çıxaran logistika sistemləri Avropanın energetika xəritəsinin mühüm tərkib hissəsinə çevrilmişdir. Regional əməkdaşlığın gözəl nümunələri olan bu cür layihələr dövlətlərimizin və xalqlarımızın tərəqqisinə xidmət etməklə yanaşı, türk ölkələrinin bir-birinə daha da yaxınlaşmasına kömək göstərir. Çıxışında ötən ilin noyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə görüşündə alınan mühüm qərarları, o cümlədən bu əməkdaşlıq və tərəfdaşlıq qurumunun "Türk Dövlətləri Təşkilatı" adlandırılmasını türk dövlətlərinin rəhbərlərinin zamanın çağırışlarına adekvat münasibətinin növbəti təzahürü olduğunu xatırladan Milli Məclisin Sədri qeyd edib ki, bu mənada 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının əldə etdiyi böyük Zəfər ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına təkan verən amil kimi qiymətləndirilməlidir.

Plenar iclasda Azərbaycanın regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması, ölkələrimiz arasında əməkdaşlığın inkişafı istiqamətində həyata keçirdiyi işlər haqqında da məlumat verən Sahibə Qafarova vurğulayıb ki, torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Azərbaycan öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinə start verib. İşğal dövründə Ermənistan tərəfindən dağıdılmış bütün kənd və şəhərlərimiz, tarixi, mədəni və dini abidələrimiz, bütün infrastruktur yenidən bərpa olunur. "Yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq bu ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə geri qaytarılmasına başlanacaqdır.

Milli Məclisin Sədri bildirib ki, həyata keçirilən işlərə ən böyük maneə işğaldan azad edilmiş torpaqlarda Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 10 noyabr 2020-ci ildən etibarən mina partlayışları nəticəsində 210-dan çox mülki şəxs və hərbçi həlak olub və yaralanıb. Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən biri olsa da, hələ də bu istiqamətdə ən az beynəlxalq yardım alan ölkələrdən biri olaraq qalır.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi regionumuzda yeni reallıqlar və yeni perspektivlər ortaya çıxarıb. O, xüsusilə vurğulayıb ki, əldə edilmiş razılaşmalara uyğun olaraq, yeni nəqliyyat infrastrukturu olan Zəngəzur dəhlizinin açılması türk dünyasının coğrafi bağlantısının bərpası və nəticə etibarilə ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi yolunda mühüm bir addım olacaqdır.

Hazırda Azərbaycan regionda möhkəm sülh, təhlükəsizlik və əməkdaşlığın təmin edilməsi istiqamətində səylərini davam etdirir. Məhz 30 il ərzində Ermənistanın işğalı ilə üzləşmiş və müharibədə qələbə qazanmış Azərbaycan sülh təşəbbüsləri ilə çıxış edir. Çünki biz artıq müharibədən deyil, sülhdən, əməkdaşlıqdan danışmaq istəyirik. Spiker ümid etdiyini bildirib ki, Ermənistan tərəfi öz üzərinə düşən öhdəliyi yerinə yetirərək, Azərbaycanla XXI əsrə yaraşan sivil ikitərəfli münasibətlər qurmaq istiqamətində real və konstruktiv addımlar atacaqdır.

Çıxışının sonunda spiker Sahibə Qafarova deyib ki, Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində iş birliyinin böyük potensialı var. O, əminliyini ifadə edib ki, bu potensial xalqlarımızın və ölkələrimizin ümumi maraqlarının təmin edilməsinə yönələn yeni-yeni işlərdə təcəssümünü tapacaqdır.

XI plenar iclasda həmçinin Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanov, Qırğız Respublikası Joqorku Keneşinin Sədri Talant Mamıtov, Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Türkmənistan Milli Şurasının Xalq Məsləhətinin Sədr müavini Kasımqulı Babayev, Macarıstan Milli Assambleyasının nümayəndə heyətinin rəhbəri Şandor Lejak və türk əməkdaşlıq təşkilatlarının nümayəndələri çıxış ediblər.

Daha sonra iclasda bir sıra təşkilati məsələlərə baxılıb və müvafiq qərarlar qəbul olunub. İclasda həmçinin təşkilatın adının Türk Dövlətləri Parlament Assambleyasına dəyişdirilməsi haqqında protokol imzalanıb. TÜRK PA-nın XI plenar iclası Çolpon-Ata Bəyannaməsinin qəbulu ilə başa çatıb.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Sahibə QAFAROVA: "TÜRK PA-nın adının "Türk Dövlətləri Parlament Assambleyası" kimi dəyişdirilməsi təşkilatımızın tarixində keyfiyyət baxımından yeni bir səhifə açır"

İyunun 24-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində TÜRK PA-nın XI plenar iclasının yekunlarına həsr edilmiş mətbuat konfransı keçirilib. Mətbuat konfransında təşkilata üzv dövlətlərin parlament sədrləri iştirak ediblər.




Milli Məclisdən verilən məlumata görə, Azərbaycan Parlamentinin Sədri Sahibə Qafarova media nümayəndələrinə tədbirin yekunları ilə bağlı açıqlama verərək deyib ki, Azərbaycan Respublikasının Milli Məclisi TÜRK PA çərçivəsində fəaliyyətinə böyük əhəmiyyət verir və qardaş ölkələrin parlamentləri arasında həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın inkişafı istiqamətində səylərini davam etdirir.

O, TÜRK PA-nın XI plenar iclasının uğurla başa çatdığını bildirərək, həm şura iclasının, həm də plenar iclasın gündəliyinin kifayət qədər zəngin olduğunu qeyd edib. Spiker vurğulayıb ki, gündəliyə daxil olan bütün məsələlər işgüzar şəraitdə müzakirə olundu və müvafiq qərarlar qəbul edildi. Sahibə Qafarova xüsusilə TÜRK PA-nın XI plenar iclası çərçivəsində qəbul edilmiş ən mühüm qərarlardan biri kimi, "Türkdilli Ölkələrin Parlament Assambleyası"nın adının "Türk Dövlətləri Parlament Assambleyası"na dəyişdirilməsini qeyd edib. Spiker vurğulayıb ki, bu qərar təşkilatımızın tarixində keyfiyyət baxımından yeni bir səhifə açır və bizim qarşılıqlı etimad və dəstəyə əsaslanan parlamentlərarası əməkdaşlığımızı daha da gücləndirmək niyyətimizi əks etdirir.

Milli Məclisin Sədri həmçinin qeyd edib ki, qurumun ayrı-ayrı komissiyalarının iclasları, qarşılıqlı maraq doğuran mövzulara həsr edilmiş seminarlar, qanunvericilik sahəsində təcrübə paylaşımı, seçki və referendum müşahidə missiyaları TÜRK PA-nın məhsuldar fəaliyyətinin nəticələridir. Xüsusən beynəlxalq parlament təşkilatları çərçivəsində birgə fəaliyyətimiz və səmərəli əməkdaşlığımız da uğurla davam etdirilir. O, həmçinin XI plenar iclasın yekunlarına dair qəbul olunmuş Çolpon-Ata Bəyannaməsinin də əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, bəyannamədə bir çox önəmli məsələlərə dair fikir birliyimiz və ortaq mövqeyimiz öz əksini tapıb. Bu mənada bəyannamə qardaş ölkə parlamentlərinin qarşılıqlı etimad və dəstəyi baxımından əhəmiyyətlidir. Milli Məclisin Sədri xüsusən Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpası və yenidən qurulması istiqamətində göstərdiyi səylərlə bağlı Azərbaycan Respublikası ilə həmrəyliyin nümayiş etdirilməsinə, türk dövlətləri arasında daha qısa və effektiv nəqliyyat bağlantısı olacaq Zəngəzur dəhlizinin təşviqinə görə qardaş ölkə parlamentlərinə öz təşəkkürünü bildirib.

Yekunda spiker Sahibə Qafarova əminliyini ifadə edib ki, TÜRK PA-nın Çolpon-Ata şəhərində keçirilmiş XI plenar iclası təşkilatın qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Spiker toplantıda qəbul edilmiş qərarların qardaş xalqlarımız və dövlətlərimiz arasında münasibətlərin daha da dərinləşməsi, birgə maraqlarımızın müdafiəsi işlərinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***







# Zəngilanda icra olunan bərpa-quruculuq layihələri ilə tanışlıq

**Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloqların və siyasi şərhçilərin, habelə media nümayəndələrinin dünən Zəngilan rayonuna səfəri təşkil olunub. Səfər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə reallaşıb.**











AZƏRTAC xəbər verir ki, ölkədə siyasi dialoq ənənə və təcrübəsinin daha da dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsünə əsasən, mütəmadi olaraq müxtəlif səpgili layihələr icra olunur. Azərbaycan ictimaiyyəti mövcud istiqamətdəki davamlı təşəbbüslərin şahididir. Təsadüfi deyil ki, dövlət başçısı siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürlərə davamlı olaraq müraciət edir.

Mövcud kontekstdə işğaldan azad olunmuş ərazilərə siyasi partiya rəhbərləri üçün birgə səfərlərin təşkili təcrübəsi xüsusi siyasi çəkiyə malikdir.

Xatırladaq ki, ölkənin demokratik məzmunlu siyasi dialoq təcrübəsini zənginləşdirən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha öncə Ağdam və Şuşa şəhərlərinə təşkil olunub. Belə ki, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri ötən il martın 17-də Ağdam şəhərinə, ikinci birgə səfər oktyabrın 7-də Şuşa şəhərinə təşkil edilib. Ölkə siyasiləri üçüncü dəfə Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə cari il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak etmək üçün birgə səfərə çıxıb, Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq müxalif siyasi partiyalar iqtidar tərəfindən təşkil olunmuş rəsmi dövlət tədbirində iştirak ediblər.

Növbəti, dördüncü birgə səfərin ünvanı Zəngilan rayonudur. Cari ilin iyunun 24-də keçirilmiş səfərdə 40 siyasi partiyanın 46 nümayəndəsi təmsil olunub. Təşkil olunmuş səfərdə siyasilərlə yanaşı, tanınmış politoloqlar və siyasi şərhçilər, habelə jurnalistlər iştirak ediblər.

Qeyd edək ki, bu səfərin ilk ünvanı Cəbrayıl rayonu olub. Burada səfər iştirakçılarına Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib. Düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək fürsəti yaradılıb. Səfər iştirakçıları həmçinin Füzuli-Zəngilan (Ağbənd) avtomobil yolunda agentlik tərəfindən görülən işlər barədə geniş məlumatlandırılıb, eyni zamanda sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında mexaniki minatəmizləmə maşınlarının işi ilə də tanış olublar. Sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında minaaxtaran itlərlə təmizləmə proseslərini də səfər iştirakçılarına izləmək imkanı yaradılıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən verilmiş məlumatları dinləyən səfər iştirakçıları mina xəritələrinin Azərbaycana təhvil verilməməsi faktını rəsmi İrəvanın növbəti hərbi cinayəti kimi qiymətləndiriblər.

Mina xəritələrindən Ermənistanın siyasi spekulyasiya məqsədilə istifadə etdiyini qeyd edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mövcud istiqamətdə həqiqətlərin beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılması prosesində bütün siyasi partiyaların fəal iştirakının əhəmiyyətini vurğulayıb.

Aparılan fikir mübadiləsi çərçivəsində qeyd olunub ki, mülki əhalinin ölümünə və insan faciəsinə səbəb olan Ermənistanın mina xəritələri ilə manipulyasiyalarına son qoyulmalı və beynəlxalq ictimaiyyət bu hərbi cinayətlərə qarşı adekvat tədbirlər görməlidir.

Səfər iştirakçıları sonra Zəngilanda Həkəri çayına balıq buraxılmasında iştirak ediblər. Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev səfər iştirakçılarına Həkəri çayı, bu ərazilərin flora və faunası haqqında məlumat verib. Buraxılan balıq növləri barədə səfər iştirakçılarını məlumatlandırıb. O, Həkəri çayına üç min balığın buraxıldığını bildirib.

Siyasi partiya nümayəndələri, tanınmış politoloqlar və siyasi şərhçilər 2021-ci ilin aprelində təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuş və cari il mayın 27-də dövlət başçısının iştirakı ilə birinci mərhələsinin açılışı olmuş "ağıllı kənd" layihəsi ilə yaxından tanış olmaq imkanı qazanıblar. Zəngilanda səfər iştirakçılarını qarşılayan Aqrar Xidmətlər Agentliyinin sədri Mirzə Əliyev qonaqlara layihə haqqında geniş məlumat verib. Qeyd edək ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Burada 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir.

Səfər çərçivəsində iştirakçılar Ağalı kəndində yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" Mərkəzi, DOST Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək.

Daha sonra səfərdə iştirak edən siyasilər Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış olublar.

Səfər iştirakçılarına Qarabağın "Yaşıl enerji" zonasına çevrilməsi prosesində Zəngilanın xüsusi rolu haqqında da geniş məlumat verilib. Eyni zamanda ölkə siyasiləri Zəngilandan keçən logistik layihələr haqqında da məlumatlandırılıblar. Səfər iştirakçılarına inşa olunan Zəngilan Beynəlxalq Hava Limanı, ümumi uzunluğu 124 kilometr olacaq Zəngilan-Horadiz avtomobil yolu, eləcə də Horadiz-Zəngilan-Ağbənd beynəlxalq dəmir yolu haqqında da məlumat verilib. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda beynəlxalq yükdaşımaları üçün yeni beynəlxalq bir yol olacaq.

Səfər çərçivəsində siyasilər Zəngilanın turizm potensialı ilə də tanış olublar. Onlara məlumat verilib ki, gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, həmçinin dəmir və avtomobil yolları Zəngilanda turizmin inkişafı üçün zəmin yaradır. Səfər iştirakçılarına bildirilib ki, Zəngilan rayonunun turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Zəngilana qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Səfərdə iştirak edən ölkə siyasiləri Bəsitçay Dövlət Təbiət Qoruğunu da ziyarət ediblər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasi proseslərin iştirakçıları arasında sağlam əməkdaşlıq münasibətlərinin və demokratik məzmunlu dayanaqlı dialoq ənənələrinin dərinləşməsinə xidmət edir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Bu mənada ölkəmizdə siyasi dialoq mühitinin təşviqinə yönəlmiş təşəbbüslər ilk növbədə Prezident İlham Əliyevin dövlət siyasətinin demokratik məzmunundan xəbər verir. Bu cür demokratik təcrübələri və Azərbaycanın siyasi reallığını nəzərə alaraq deyə bilərik ki, siyasi dialoq vahidliyi milli birliyi, həmrəyliyi, sabitliyi, təhlükəsizliyi və dayanıqlı inkişaf mühitini təmin edən əsas demokratik mexanizmlərdən biridir.

Sonda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Zəngilana səfərin əhəmiyyəti barədə fikirlərini bölüşüb. Burada iştirak edən qonaqlara öz təşəkkürünü bildirib.



# Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlər yüksələn xətlə inkişaf edir



İyunun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov fəaliyyət müddətinin başa çatması ilə əlaqədar Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyətini yüksək dəyərləndirərək, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə ona təşəkkürünü bildirib.

Nazir Azərbaycan ilə Macarıstan arasında yüksəksəviyyəli təmaslar daxil olmaqla, ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafını qeyd edib və bu münasibətlərin müxtəlif sahələrdə daha da inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Səfir Viktor Sederkenyi Azərbaycanı ən xoş arzularla tərk etdiyini bildirib və ölkəmizlə bağlı xoş təəssüratlarının daim xatirində qalacağını qeyd edib. O, ölkələrimiz arasında təkcə dostluq və strateji əməkdaşlıq deyil, Türk Dövlətləri Təşkilatında iştirak ilə qardaşlıq münasibətlərinin də olduğunu məmnunluqla bildirib.

Tərəflər iki ölkə arasında siyasi, iqtisadi-ticarət, humanitar, o cümlədən təhsil, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin perspektivlərini də müzakirə ediblər.

Sonda nazir Ceyhun Bayramov səfir Viktor Sederkenyiyə bir daha gələcək fəaliyyətində və şəxsi həyatında uğurlar arzulayıb.

# Azərbaycan bölgədə sülh və tərəqqinin təmin olunmasında qətiyyətlidir



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iyunun 24-də ölkəmizdəki fəaliyyətinin başa çatması ilə əlaqədar Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri Arian Bauer ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov BQXK-nin ölkəmizdə həyata keçirdiyi layihələrin əhəmiyyətini qeyd edərək, bu xüsusda Arian Bauerin fəaliyyətini məmnunluqla vurğulayıb. O, Arian Bauerin ölkəmiz üçün xüsusi önəmli bir dövrdə - Vətən müharibəsi zamanı fəaliyyət göstərdiyini qeyd edərək, ona postmünaqişə mərhələsində ölkəmizdəki səmərəli fəaliyyətinə görə təşəkkür edib və gələcək səylərində uğurlar arzu edib.

Nazir Ceyhun Bayramov eyni zamanda BQXK-nin Azərbaycan nümayəndəliyinin yeni rəhbəri Draqana Koyiçə gələcək işlərində uğurlar arzulayıb. Nazir yeni nümayəndəyə bölgədə hazırda mövcud olan vəziyyət, münaqişə sonrasında mina təhlükəsinin doğurduğu acı fəsadlar, hələ Birinci Qarabağ müharibəsindən itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyinin naməlum qaldığı və digər məsələlər barədə məlumat verib. O, bölgədə sülh və tərəqqinin təmin olunmasında Azərbaycanın qətiyyətli olduğunu diqqətə çatdırıb.

Arian Bauer fəaliyyəti müddətində ona göstərilmiş siyasi dəstəyə görə minnətdarlığını ifadə edib və BQXK-nin ölkəmizdə bir çox istiqamətlərdə həyata keçirdiyi fəaliyyət barədə məlumat verib.

Draqana Koyiç ölkəmizdə çalışacağı müddətdə BQXK-nin Azərbaycandakı fəaliyyətinin uğurla davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyib.

Tərəflər Azərbaycan ilə BQXK arasında qarşılıqlı etimad doğuran münasibətlərin və açıq dialoqun gələcəkdə də davam etdiriləcəyinə əminliklərini bildiriblər.

# Yanındayıq, Türkiyə!

## Azərbaycan meşə yanğınlarına qarşı mübarizədə qardaş ölkəyə yenə də ən böyük dayaqdır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Türkiyə Respublikasındakı meşə yanğınlarının daha geniş miqyas almasına imkan verilməməsi və söndürülməsinə kömək məqsədilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinə məxsus "BE-200ÇS" amfibiya tipli təyyarə qardaş ölkəyə göndərilib.

Keçən il də Türkiyədə baş verən meşə yanğınlarının söndürülməsində iştirak edən adıçəkilən təyyarə artıq ötən gün səhər saatlarından etibarən Muğla bölgəsində yanğınlarla mübarizə tədbirlərinə başlayıb.

### Kədərin kədərimizdir, Türkiyə

Qeyd etdiyimiz kimi, ötən ilin yay aylarında da Türkiyədə geniş meşə yanğınları baş vermiş və xeyli fəsadlara, insan itkisinə səbəb olmuşdu. Azərbaycan xalqının üzüntüsünə səbəb olan həmin çətin anlarda dövlətimiz yenə də maddi və mənəvi dəstəyi ilə Türkiyənin yanında olmuş, son ana qədər yardımını əsirgəməmişdi.

Prezident İlham Əliyev qardaş ölkənin rəhbərinə yanğınlar zamanı həyatını itirən vətəndaşlara görə başsağlığı verərək bildirmişdi ki, Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

Birinci vitse-prezident Mehriban Əliyeva da Türkiyəyə dəstək olaraq paylaşım edərək "Türkiyə xalqının kədəri bizim kədərimizdir", - deyə vurğulamışdı.

Həmin vaxt Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasının qarşısının alınması üçün qardaş ölkəyə Azərbaycandan yardım dəstələri göndərilmişdi.

Bütün bunlar isə iki ölkə arasındakı diplomatik münasibətlərdən ziyadə, iki qardaş xalq arasındakı mənəvi bağlılığın, bir qardaşın çətin vəziyyətə düşən qardaşının harayına yetməsinin əyani təcəssümü idi.

### Türkiyəyə yardım üçün Azərbaycanın təklifə ehtiyacı yoxdur

Bu cür qürurverici nümunələr təkcə bu günümüzdə yox, dünənimizdə də yaşanıb.

1999-cu ildə Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı qardaş xalqa ilk yardım əlini uzadan da məhz Azərbaycan dövləti olub.

2000-ci illərdə, Abdullah Gül Türkiyədə Prezident olduğu dövrdə baş verən meşə yanğınları zamanı yaşanan bir məqam isə indi də dillərdən düşmür və xalqlarımız arasındakı qardaşlığın hansı yüksək səviyyədə olduğunu bir daha gözlər önünə sərir.

Həmin dövrdə meşə yanğınlarının söndürülməsi üçün bir çox ölkələrin yardım təklifini geri çevirən Abdullah Gülə "bəs nə üçün Azərbaycanın dəstəyinə yox deməmisiniz", - deyə sual ünvanlanmışdı. Cavab isə çox maraqlı və bizim üçün də bir o qədər qürurverici olmuşdu. Prezident söyləmişdi ki, axı heç Azərbaycan bizdən icazə istəməyib. Artıq onların yanğını söndürmək üçün göndərdikləri təyyarələr Türkiyə səmalarındadır və yerə enmək üçün bizdən izin istəyirlər...

Daha bir qardaşın digər qardaşın harayına yetməsinin əyani sübutu olacaq əlavə şərhə ehtiyac varmı?!.

Və bu, bir millət, bir tarixi köklərə malik olmağımızın, ürəklərimizin bir-birimiz üçün birgə döyünməyinin minlərlə nümunəsindən, sadəcə, biridir...

### Qardaş dayağı

Eləcə də tarixin müxtəlif dönəmlərində olduğu kimi, Türkiyə hər zaman Azərbaycana qardaş kimi arxa-dayaq olub. 44 günlük Vətən müharibəsi zamanı da qardaş Türkiyə müharibənin elə ilk dəqiqələrindən etibarən Azərbaycanın haqlı davasının yanında olduğunu nümayiş etdirdi. Son dərəcə böyük siyasi və mənəvi dəstək nümayiş etdirərək qardaşına dayaq durdu.

2020-ci ilin 10 dekabrında, Zəfər paradımızda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ali qonaq qismində iştirak etməsinin də öz böyük rəmzi mənası, qardaşlığımızın bütün dünyaya bir daha möhtəşəm bəyanı oldu.

Vətən müharibəmizin üzərindən ötən zaman ərzində də iki ölkə arasındakı qardaşlıq münasibətləri daha yüksək mərhələyə qədəm qoyub. Mədəniyyət paytaxtımızda imzalanan Şuşa Bəyannaməsi isə həm də siyasi müttəfiqliyimizin, ortaq təhlükəsizliyimizin hüquqi əsası olub.

Bu gün Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı dünya üçün örnəkdir. Necə ki, bu barədə Prezident İlham Əliyev vurğulayıb: "Dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, belə arxa-dayaq dursun".

Tezliklə qardaş Türkiyədə meşə yanğınları ilə əlaqədar baş verən bu təbii fəlakətin də öhdəsindən birlikdə layiqincə gələcəyik. Azərbaycan-Türkiyə birliyinin verdiyi güc və əzmlə bu sınaqdan da qalib çıxacağıq...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "Bir amalın iki qolu... Azərbaycan-Türkiyə"

*Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan-Türkiyə!*

Bu iki böyük və məğrur dövlətin dostluq və qardaşlıq bağları təkcə bizim yox, bütün ölkələr üçün hər zaman maraq mövzusu olub. Dünyada elə bir ölkə yoxdur ki, onun istənilən evinin qapısını açıb içəri keçmək istəyəndə başının üzərində digər bir dövlətin bayrağını öz dövlətinin bayrağı ilə yanaşı dalğalanan görəsən. Belə bir tarixi nümunə sadəcə Azərbaycan və Türkiyəyə məxsusdur. Onun ünvanı adı dillərdə əzbər olan "Bir millət, iki dövlət"dir.

Hazırda bu amalla Azərbaycanda xeyli sayda türk iş adamı və iri türk şirkətləri, holdinqləri fəaliyyət göstərir. Onlardan biri də Azərbaycanda həyata keçirilən qlobal tikinti layihələrində öz imzası ilə etibar və hörmət qazanan tanınmış iş adamı Ufuk Aydındır. Ufuk Aydın türk dünyasına örnək olacaq layihələrin icrasında "SinerjiPro" adlı ailəsi ilə bərabər yorulmadan çalışır.

Türkiyənin "SinerjiPro" şirkətinin Azərbaycandakı filialının təsisçisi və baş direktoru olan Ufuk Aydın 1968-ci il dekabrın 25-də Türkiyənin Zonquldağ şəhərində dünyaya gəlib. Ulu babaları 1890-cı il Osmanlı-Rus müharibəsi zamanı Qafqazdan Türkiyəyə köç ediblər. O üzdən U.Aydın həm də Azərbaycanı doğma vətəni hiss edir.

Azərbaycanlı bir xanımla ailə qurub, 4 qız və 1 oğul atasıdır. İxtisasca elektronika və telekommunikasiya mühəndisidir. 1990-2004-cü illərdə Türkiyədə TV mediası ilə bağlı bir çox sahədə çalışıb. 2006-cı ildən Azərbaycana gəlib, ilk 3 il Naxçıvanda çalışdıqdan sonra Bakıda "SinerjiPro" şirkətinin Azərbaycan filialının əsasını qoyub.

Ufuk Aydın Azərbaycan və Türkiyə münasibətlərinə dair söhbətinə türk dünyasının Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Qarabağ zəfəri ilə başladı:



- Mən bu doğma məmləkətimdə bir iş adamı, bir şirkət rəhbəri kimi çox şanslı olduğumu ifadə etmək istəyirəm. Azərbaycan hazırda dünyanın ən xoşbəxt ölkələrindən biridir. Çünki ona türk dünyasının Müzəffər Ali Baş Komandanı İlham Əliyev kimi şəxsiyyət rəhbərlik edir. O, Qarabağ zəfəri ilə bizi bir millət olaraq təkcə 30 illik ayrılıqdan deyil, əsrlərdir içimizdə yığılıb qalmış mənəvi ağırlıqdan da xilas etdi. Düşmənlərimizdən ulu babalarımızdan yarımçıq qalmış intiqamımızı aldı. "Dəmir yumruq" artıq bütün türk dünyasının simvoludur.

1997-ci ildə Türkiyədə təsis edilən və mərkəzi İstanbulda olan "SinerjiPro" müasir istilik, havalandırma və soyutma sistemləri (HVAC&PLUMBING), elektrik, inkişaf etmiş bina elektronikası, TV yayımçılığı, peşəkar səs və işıq sistemləri istiqamətində geniş məhsul çeşidləri istehsal edən, güclü mühəndis kadrları olan bir texnoloji şirkətdir. Ümumilikdə əsas fəaliyyət sahəmiz elektromexanika sistemləridir. Hazırda isə fəaliyyət prioritetini inşaat sektoru təşkil edir. Böyük muzeylər, iri obyektlər, hündür qüllələr, universitet inşaatları, xəstəxanalar, alış-veriş mərkəzləri, hotellərin binaları ilə bağlı elektrik, elektronika, avtomatlaşdırma və peşəkar istilik-soyutma sistemlərinin qurulmasını həm layihələndirir, həm də onların quraşdırılmasını həyata keçiririk. "SinerjiPro" Türkiyədə, türk cümhuriyyətlərində, Rusiya ərazisində, Bağdadda və digər ölkələrdə tanınmış bir çox inşaat firması ilə müştərək çalışaraq elektromexanika sahəsində çalışmalarımızı davam etdiririk. Ən böyük şöbələr isə Azərbaycan və Gürcüstandadır. Azərbaycanda rəsmi filial kimi qurulan gündən bu günəcən eyni binada, eyni ünvanda yerləşirik.









"SinerjiPro" şirkətinin çalışanları və məni yaxından tanıyan insanlar bilirlər ki, Azərbaycan aşiqiyəm. Ruhum Azərbaycanın havası, suyu, əkməyi ilə yoğrulub. Mən bu sevgimi həm iş, həm də özəl həyatımda bütün əməllərimlə təsdiqləmiş biriyəm. Böyük tikinti layihələrində uğurlu işlərimlə hər zaman güvən, etibar qazanmağa və bununla da hər zaman şirkətimizin adını uca tutmağa çalışıram. Azərbaycanda indiyə qədər çox böyük tikinti layihələrində əməyimiz olub. Bakı Konqres Mərkəzi, Heydər Əliyev Mərkəzi, ADA Universiteti, Azərbaycan Xalça Muzeyi və özəl şirkətlərin qurulmasında uğurla iştirak etmişik. Hazırda üzərində çalışdığımız böyük layihələrimiz də var. Qarabağda start verilən yenidənqurma və bərpa işlərində bizim şirkətin fəaliyyəti barədə idarə heyətimizlə məsləhətləşmələr aparırıq. İnşallah ki, doğma Azərbaycanımızda hələ görüləcək işlərimiz çoxdur.

Ufuk Aydın sözünə davam edir:

- Bu gün gördüyümüz işləri xatırlayanda, tamamladığımız binaların yanından keçəndə çox qəribə bir sevinc hissi keçirirəm. Çünki bu qalib məmləkətin "şorba"sında "SinerjiPro" ailəsinin də "duz"u var. Təbii ki, biz iş adamıyıq və bizim özümüzə görə qaldıracağımız yük var. 2020-ci il sentyabrın 27-də Qarabağda başlanan Vətən savaşında iki qardaş ölkə arasında hər kəs bir yumruq oldu. Sıravi vətəndaşdan tutmuş, iş adamları və dövlət rəhbərlərinə qədər hamının ruhu da, sözü də birlikdə idi. Və əlbəttə ki, bu birlik nəyə qadir olduğunu bütün dünyaya göstərdi. İyun ayının 26-sı Azərbaycanın ən önəmli tarixi günlərindən biri olan Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür. Fürsətdən istifadə edərək, Azərbaycanın Ali Baş Komandanı cənab İlham Əliyevi və onun timsalında bütün türk dünyasını təbrik edirəm. Qoy bütün dünya türklərinin qolu güclü, “DƏMİR YUMRUĞ”U var olsun, bayraqları səmaları bəzəsin!

Ufuk Aydının sözünə qüvvət. Azərbaycan-Türkiyə birliyi hazırda bütün dünyada dostluğun, qardaşlığın və müttəfiqliyin rəmzinə çevrilib. Azərbaycan-Türkiyə münasibətlərinin indiki tarixi mərhələsinə gəlib yetişməsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı inamı, liderlik xüsusiyyətləri, regionun və dünyanın gələcəyinə ümumi baxışları, tarixin sınaqlarından çıxmış qardaşlıq etibarı çox mühüm rol oynayır. Bu iki güclü şəxsiyyət arasındakı sarsılmaz dostluq və onları birləşdirən liderlik xüsusiyyətləri Azərbaycan-Türkiyə münasibətlərinin uğur formuludur. Onlar milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını sözlə deyil, əməli fəaliyyətləri ilə nümayiş etdirirlər. Bu gün öz liderlərinin sayəsində Türkiyə də, Azərbaycan da çox böyük tarixi uğurlar əldə edib. O üzdən bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınıb qəbul edilməkdədirlər.

Azərbaycanla Türkiyə arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasından artıq bir il ötüb. Bəyannamə bu il fevralın 1-də Azərbaycan parlamenti, fevralın 4-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən ratifikasiya olunub. Bu mühüm sənəd Azərbaycan və Türkiyə arasında ümumi maraqların qorunması baxımından çox əhəmiyyətlidir. Şuşa Bəyannaməsi iki qardaş dövlətin siyasi, iqtisadi, müdafiə, mədəni və demək olar ki, bütün sahələr üzrə əlaqələrinin genişləndirilməsi, imkan və potensialların birləşdirilməsini ehtiva və münasibətlərin davamlı inkişafını təmin etməklə yanaşı, iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını təşkil edir.

İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın tək olmadığını, birmənalı və açıq şəkildə Azərbaycana öz dəstəyini bildirdi. Bunun ardınca Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın da yeni perspektivlərini açmış oldu. Bəyannamənin Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanması isə tarixi hadisədir.

***Səbuhi BAYRAMOV, "Azərbaycan"***

# Azərbaycan-Türkiyə qardaşlığı bəşəri sərvət olan "Yaşıl Vətən"in keşiyində!!!

**Prezident İlham Əliyev: "...Mən dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkələr yoxdur. Əgər axtarmaq istəsəniz, tapa bilməzsiniz, yoxdur. Bu birlik, həmrəylik, qardaşlıq sözdə deyil, əməldədir. Mən hər zaman deyirdim ki, ölkələr arasındakı münasibətlər əməldə olmalıdır. Çünki yaxşı günlərdə hər kəs yaxşı sözlər deyə bilər, yaxşı çıxışlar edə bilər. Amma ağır gündə sən gəl yanında dur. Necə ki, Türkiyə İkinci Qarabağ savaşında bizim yanımızda durdu. Mən tam əminəm ki, Türkiyə amili olmasaydı, ermənipərəst qüvvələr, ölkələr, ermənilərin hamiləri burunlarını soxacaqdılar və bizə böyük problemlər yaradacaqdılar. Bizim həmrəyliyimiz və bir-birimizə etdiyimiz yardımlar təbiidir. Çünki Türkiyə bizim üçün doğma ölkə, doğma vətəndir və sizin üçün də Azərbaycan doğma vətəndir. Əziz Qardaşımla imzaladığım Şuşa Bəyannaməsi bunun zirvəsidir. Yəni bizim əlaqələrimiz müttəfiqlik səviyyəsinə qalxdı. Ona görə bu yanğınlardan xəbər tutan kimi biz dərhal hərəkətə keçdik, heyətlər göndərdik, maşınlar göndərdik. Hörmətli Cümhurbaşkanı ilə bir neçə dəfə telefonla danışdım və qısa zaman içərisində biz həm əlavə heyət, həm də maşınlar göndərdik. Bizim cəmi bir amfibiya təyyarəmiz var, təəssüf ki, o da təmirdə idi. Təlimat verdim ki, təmir çox sürətlə yekunlaşsın ki, biz onu göndərə bilək. Təmir plan üzrə hələ iki ay davam etməli idi. Amma biz onu bir həftəyə saz vəziyyətə gətirdik və oraya göndərdik. Türkiyəyə 93 yanğınsöndürən maşın, 700-dən çox yanğınsöndürən yola saldıq. Onlara hər hansı bir xüsusi təlimat vermək lazım deyildi. Çünki onlar özləri bu faciəni öz faciəsi kimi qəbul etdilər və qardaş kimi orada çalışdılar."**

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinə (FHN) məxsus "BE-200ÇS" amfibiya tipli təyyarənin 10 nəfərlik heyətlə Türkiyənin Muğla bölgəsində tüğyan edən meşə yanğınlarının söndürülməsinə qatılmaq üçün yenidən qardaş yardımına yetişməsi qardaş ölkə ictimaiyyəti tərəfindən böyük hərarətlə qarşılanıb. Artıq Azərbaycanın "BE-200ÇS" amfibiya təyyarəsi yenidən mavi səmaları yara-yara böyük əzmlə "Yaşıl Vətən"in keşiyinə qalxıb.

Haqqında bəhs etdiyimiz, hər zaman insan qayğısına və vətəndaş diqqətinə ehtiyacı olan "Yaşıl Vətən" qardaş Türkiyənin coğrafiyasına xüsusi əzəmət gətirdiyi kimi, bərəkət və gözəllik rəmzidir. Əhalinin bu nadir təbiəti sevməsinin əsas səbəbi isə Vətənə bağlılıqdır. Təbiəti sevmək, ona bağlı olmaq və qorumaq türk xalqlarının çox qədimlərdən genetik xüsusiyyətinə çevrilən vərdişdir. Təəssüf ki, son illər bütün dünyada olduğu kimi, Türkiyədə də meşə yanğınlarına tez-tez rast gəlinir və bu, təbiətə, iqtisadiyyata, insanların rahatlığına böyük zərbə vurur.

### Türkiyədə meşə yanğınlarının statistikası

“Anadolu” Agentliyinin məlumatına görə, Türkiyədə 1937-ci ildən 2020-ci ilədək ümumilikdə 114 min 941 meşə yanğını təsbit edilib. Bu sayın 26 min 311-i 2011-2020-ci illərin payına düşür. Ölkədə orta hesabla hər ilə 2 min 631 meşə yanğını baş verir.

Bundan başqa, 2016-cı ildə 9 min 156, 2017-ci ildə 11 min 993, 2018-ci ildə 5 min 644 və 2019-cu ildə isə 11 min 332 hektar meşəlik ərazi yanıb.

Ölkədə baş verən meşə yanğınlarının mütləq əksəriyyəti insan faktoru ilə əlaqələndirilir. Bura səhlənkarlıq, məsuliyyətsizlik və qəsd amilləri daxildir. Bu amillərin hər hansı birindən asılı olmasına baxmayaraq, meşə yanğınlarının baş verməsi təəssüfləndirici və ürəkdağlayandır. Qəsd məsələsinə gəldikdə isə, bu hal beynəlxalq səviyyəli cinayətdir. Çünki "Yaşıl Vətən"in əsasını təşkil edən meşələr yalnız yerləşdiyi ölkənin deyil, ümumdünya sərvətidir. Planetimizin "ağ ciyərləri" sayılan meşələri qorumaq ümumi işdir. Bəli, Azərbaycan-Türkiyə qardaşlığı böyük əzmlə bəşəri sərvət olan "Yaşıl Vətən"in keşiyindədir. Bu birlik və həmrəylik yalnız iki qardaş ölkənin maraqları deyil, bütün dünya üçün faydalıdır.

Cari il iyunun 21-də Marmaris bölgəsində təsbit edilən meşə yanğınını törətməkdə şübhəli bilinən şəxsin saxlanılması, cinayətkarın törətdiyi əməli etiraf etməsi, bundan başqa, hadisə yerində iki benzin bidonunun tapılması kimi faktlar deməyə əsas verir ki, qardaş Türkiyə üz-üzə qaldığı düşmənləri ilə mübarizədə qanun pozan heç kəsə və heç nəyə güzəşt etməməkdə tam haqlıdır.

### Türkiyədə meşə yanğınlarına qarşı tədbirlər

Qədim dəyərlərə və böyük dövlətçilik təcrübəsinə malik olan Türkiyənin ən böyük üstünlüklərindən biri də budur ki, təhlükələrin proqnozlaşdırılması və qabaqlayıcı tədbirlərin görülməsi mühüm ənənə kimi milli sərvətə çevrilib. 2021-ci ildə baş verən genişmiqyaslı meşə yanğınları Türkiyə dövlətinin qarşılaşdığı ən ağır təbii fəlakətlər arasında sıralanmaqdadır. Hökumət qlobal istiləşmə ilə birbaşa bağlı olan bu prosesi nəzarətdə saxlamaq, növbəti yanğınların qarşısını almaq üçün tədbirlərə başladı. Bunun nəticəsidir ki, ötən aylarda yanğınsöndürmə işləri üçün təyyarə və vertolyotlar daxil olmaqla aviasiya vasitələri və digər texnika ilə arsenal sürətlə genişləndirildi. Marmarisdə baş verən meşə yanğınlarının qısa müddətdə nəzarətə götürülməsinin, alovların tüğyan halına keçməməsinin əsas səbəbi budur ki, 41 aviasiya vasitəsi dərhal yanğınlara qarşı mübarizəyə cəlb edildi. Beləliklə, Türkiyədə meşə yanğınlarına qarşı mübarizə yolları bunlardır:

- riskləri azaltmaq üçün əhali arasında davamlı maarifləndirmə;
- yanmış ərazilərin sürətli bərpası;
- qanunla tənzimlənən cəzalar və s.

Bu yerdə mühüm bir statistik göstəricini təqdim etməyə ehtiyac var. 2019-cu ilin göstəricilərinə görə, Türkiyədə ümumilikdə 22 milyon 621 min 935 hektar meşə sahəsi mövcuddur. Bu sahə Türkiyənin torpaq ərazisinin təxminən üçdəbirini təşkil edir. 2003-2019-cu illərdə ölkə ərazisinin 5 milyon 300 min hektarında meşəsalma işləri görülüb və ümumilikdə 4 milyard 300 milyon ting əkilib. Cümhuriyyətin quruluşunun yüzüncü ildönümünə, 2023-cü ilə qədər bu sayın 7 milyarda çatdırılması hədəflənir.

Məlum olduğu kimi, Azərbaycan 2021-ci ilin yayında qardaş ölkədə tüğyan edən meşə yanğınlarının söndürülməsində fəal iştirak etmişdi. Azərbaycandan ümumilikdə 700-dən çox şəxsi heyət, 93 yanğınsöndürmə texnikası, 1 helikopter və 1 amfibiya tipli təyyarə göndərilmişdi. FHN-in Türkiyədəki qüvvələrinin koordinasiyalı idarə edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyinin rəhbər işçilərindən ibarət heyət qardaş ölkədə yanğınsöndürmə briqadalarımızla birlikdə çalışmışdı. Azərbaycan yanğınsöndürənləri öz Vətənlərinə, öz evlərinə hansı qayğı ilə yanaşırlarsa, eyni məhəbbətlə də Türkiyə meşələrinin xilası naminə böyük cəsarət göstərmişdilər.

Prezident İlham Əliyevin dediyi kimi, "Onlara (yanğınsöndürənlərə) hər hansı bir xüsusi təlimat vermək lazım deyildi. Çünki onlar özləri bu faciəni öz faciəsi kimi qəbul etdilər və qardaş kimi orada çalışdılar". Bəli, Azərbaycan yanğınsöndürənlərinin ümumi işi, fərdi şücaətləri, yanan evlərdən xilas edilən türk bayrağı, yerli əhali ilə davranış, hər bir ağacın xilası naminə göstərilən qəhrəmanlıq və s. kimi nadir və həssas hərəkətlərin hamısı Türkiyənin qəlbində canlı həyat hekayəsinə çevrildi.

"Yaşıl Vətən"i alovlardan qoruyan igidlərimizin fədakarlığı qardaşlıq tariximizə yeni bir səhifəni qızıl hərflərlə yazdı. Tərəddüdsüz ifadə edə bilərik ki, mövsümi meşə yanğınları 2022-ci ildə Türkiyədə böyük təlatüm yaratmadı. Çünki hər kəs əmin idi ki, gərək olarsa Azərbaycan yenidən qardaş yardımına gələcək.

Nəzərə almaq lazımdır ki, ötən il Türkiyədə meşə yanğınlarının tüğyan etdiyi dövrdə Azərbaycan da meşə yanğınları riski ilə üz-üzə idi. Bütün bunlara baxmayaraq, Azərbaycan ən təcrübəli yanğınsöndürənlərini, ağır texnika və arsenaldakı yeganə "BE-200ÇS" amfibiya təyyarəsini tərəddüdsüz Türkiyəyə göndərdi.

…Cari il iyunun 23-də Azərbaycanın "BE-200ÇS" amfibiya təyyarəsinin yenidən Türkiyə səmalarında görünməsi qardaş ölkədə böyük hərarətlə qarşılandı. Ölkənin aparıcı telekanalları bu barədə xüsusi reportajlar yaymağa başladılar. Kadrlarda "BE-200ÇS" təyyarəsinin enişini, eləcə də Azərbaycan yanğınsöndürənlərinin ötən il Türkiyədəki meşə yanğınlarının söndürülməsində göstərdikləri şücaəti əks etdirən kadrlar nümayiş olunmağa başladı.

"Azərbaycan Prezident Əliyevin təlimatı ilə yenə qardaş yardımına gəldi!" sərlövhəsi ilə təqdim olunan xəbərlərdə məlumat verildi ki, "BE-200ÇS" amfibiya tipli təyyarə suyun üzərində durmadan 18-20 saniyəyə 12 ton sugötürmə qabiliyyətinə malikdir. Türkiyə əhalisinə görə, Azərbaycandan gələn "BE-200ÇS" amfibiya tipli təyyarə prosesə cəlb olunan aviasiya vasitələri arasında ən güclüsüdür. Çünki bu təyyarə məhz Azərbaycandan gəlib!

İyunun 24-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan FHN-in amfibiya təyyarəsinin heyət üzvləri ilə görüşüb, səmimi sözlərlə təşəkkürünü bildirib.

Əminik və qəlbimizdə sönməz inam var ki, Türkiyə bundan sonra heç zaman 2021-ci ildə tüğyan edən meşə yanğınları kimi ağır təbii fəlakətlərlə üz-üzə qalmayacaq. Ötən il Azərbaycanın göstərdiyi yardım başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla Türkiyənin bütün təbəqələri tərəfindən böyük rəğbətlə qarşılandı və əbədi qardaşlığımızın sarsılmaz yolunda yeni bir sönməz çıraq alovlandırdı. Qardaşlığımız və dostluğumuz əbədi olsun, ey şanlı Azərbaycan və Türkiyə!!!

# Daxili işlər naziri Bolqarıstanda rəsmi səfərdə olub






**Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovun dəvəti ilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti bu ölkədə ikigünlük rəsmi səfərdə olub.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iyunun 23-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev daxili işlər naziri Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş olduğunu söyləyən ölkə rəhbəri dövlətlərimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, hərtərəfli əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, iki ölkə arasındakı dostluq münasibətlərini və Sofiya ilə Bakı arasında ümumi maraq doğuran bir sıra sahələrdə strateji dialoqu yüksək qiymətləndirib, cinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanları arasında əməkdaşlığın təşviqinin Bolqarıstanın Azərbaycanla tərəfdaşlığının yüksəldilməsi üçün mühüm amil olduğunu bildirib.

Beynəlxalq arenada hər iki dövlətin bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, olduqca mürəkkəb regionda yerləşməsinə baxmayaraq, Prezident İlham Əliyevin liderliyi altında respublikanın son illər böyük uğurlara imza atdığını deyən Bolqarıstan Prezidenti Azərbaycanın öz milli maraqlarına xidmət edən müstəqil siyasət apardığını, dünyada nüfuzunun günü-gündən artdığını vurğulayıb, səmimi salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırmağı xahiş edib.

Göstərilən diqqətə, Azərbaycan haqqında xoş sözlərinə, dəyərli fikirlərinə, eləcə də nümayəndə heyətini qəbul etdiyinə görə Bolqarıstan Prezidenti Rumen Radevə təşəkkürünü bildirən daxili işlər naziri Vilayət Eyvazov Prezident İlham Əliyevin səmimi salamlarını Bolqarıstanın dövlət başçısının diqqətinə çatdırıb.

Daha sonra Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovla general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı mövcud əlaqələr yüksək qiymətləndirilib, əməkdaşlığın bütün istiqamətlər üzrə bundan sonra daha da möhkəmlənəcəyinə və inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Daxili işlər və təhlükəsizlik sahəsində ikitərəfli əlaqələrin inkişafı və dərinləşməsi imkanları, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizənin diqqət mərkəzində dayandığı, yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının vacibliyi vurğulanıb.

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrinin inkişafını qeyd edən daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Bolqarıstana səfərindən məmnunluğunu ifadə edərək səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. O, bolqarıstanlı həmkarları ilə əməkdaşlığa, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürləri, terrorçuluq, kibercinayətkarlıq, insan alveri, narkotik vasitələrin qeyri-leqal dövriyyəsi, qanunsuz miqrasiya sahəsində təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

Sonda daxili işlər nazirləri "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə Bolqarıstan Respublikası Daxili İşlər Nazirliyinin Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalayıblar. Qeyd olunub ki, bu memorandum tədris sahəsində qabaqcıl təcrübə mübadiləsinin imkanlarını genişləndirəcək və polis əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verəcək.

# "Yüksəliş" müsabiqəsinin yarımfinalçıları müəyyənləşib

**"Yüksəliş" müsabiqəsinin yarımfinalçıları bəlli olub.**

AZƏRTAC xəbər verir ki, "Yüksəliş" müsabiqəsinin əyani mərhələsinin "Qabiliyyət üzrə yoxlama" imtahanını uğurla keçmiş 1052 iştirakçıdan 332 nəfər yarımfinal mərhələsində iştirak hüququ qazanıb.

Ümumilikdə Bakı üzrə 214, regionlar üzrə 118 iştirakçı yarımfinal mərhələsinə buraxılıb. Onlardan 280 nəfəri kişi, 52 nəfəri isə qadındır.

Əyani mərhələnin sonuncu imtahanı olan "İdarəetmə bacarıqları üzrə imtahan"ın sual tərtibatı insan kapitalının, iş prosesinin, o cümlədən layihələrin idarə edilməsi bacarıqlarının qiymətləndirilməsi üzrə müvafiq imtahan proseslərində tətbiq edilən dünya təcrübəsinə əsaslanır. Öncədən də bildirildiyi kimi, müsabiqədə ədalətli rəqabəti təmin etmək məqsədilə test sualları bir çox beynəlxalq sistemdə tətbiq edilən T-şkala ilə qiymətləndirilib. T-şkalası təhsil üzrə test xidməti tərəfindən təsdiqlənən və bir çox beynəlxalq imtahanlarda (Toefl, GMAT, SAT və s.) tətbiq olunan üsuldur. Təyin edilən norma bütün iştirakçıların sualları cavablandırma nəticələrinin əsasında müəyyən edilir, yəni blok və variant üzrə çoxlu sayda suallara doğru cavab verən iştirakçıların sayı artdıqca T-bal nisbətən aşağı, belə iştirakçıların sayı azaldıqca T-bal nisbətən yuxarı olur. Nəticələrə əsasən, maksimal T-bal 705, o cümlədən keçid balı 540 təyin edilib. Qeyd edək ki, maksimal nəticə olan 705 T-balını cəmi 1 iştirakçı toplayıb.

Ötən ilin statistik nəticələrinə nəzər yetirdikdə onu deyə bilərik ki, ilk "Yüksəliş" müsabiqəsinin əyani mərhələnin keçid balı 533 T-bal olub və yarımfinal mərhələsinə 309 nəfər buraxılıb.

Yaxın günlərdə "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsinin tarixləri açıqlanacaq. Yarımfinal və final mərhələlərinin yekunlaşması ilə ikinci "Yüksəliş" müsabiqəsi başa çatacaq.

"Yüksəliş" müsabiqəsinin 20 qalibini 1 il ərzində idarəçi rəhbərlərdən - iri şirkətlərin top-menecerlərindən və dövlət xadimlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20.000 AZN dəyərində pul mükafatı gözləyir.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 iyul 2019-cu ildə imzaladığı sərəncamla intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

# Azərbaycan Qarabağın bərpası prosesində Qara Dəniz Ticarət və İnkişaf Bankının yaxından iştirakını zəruri hesab edir

İyunun 24-də Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun təşkilatçılığı ilə "Dəyişən dünyada Azərbaycanın şaxələndirilmiş və innovativ iqtisadiyyatının dəstəklənməsində QDTİB-in rolu" mövzusunda biznes-forum keçirilib.



Biznes-forum Azərbaycanın sədrliyi ilə Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Direktorlar Şurasının Bakıda keçirilən növbəti - 24-cü illik toplantısı çərçivəsində baş tutub. Tədbirdə rəsmi şəxslərlə yanaşı, elm, maliyyə və biznes ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, QDTİB-nin Azərbaycan üzrə rəhbəri, Bankın Rəhbərlər Şurasının hazırkı sədri, maliyyə naziri Samir Şərifov ölkəmizin bankla olan münasibətlərinə böyük önəm verdiyini, QDTİB fəaliyyətə başlayandan bu günədək Azərbaycanda özəl sektora 510 milyon avro məbləğində kreditin ayırdığını, bankın yerli maliyyə bazarlarının inkişafında da iştirak etdiyini bildirib. Nazir qeyd edib ki, Qara Dəniz Ticarət və İnkişaf Bankının əsas fəaliyyət istiqaməti məhz ticarətin və özəl sektorun inkişafına kredit və zəmanət dəstəyinin göstərilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, ona yönəlmiş biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlara maliyyə-kredit dəstəyinin artırılması, eləcə də vergi sahəsində güzəştlərin verilməsi istiqamətində məqsədyönlü islahatlar həyata keçirilir: "Bu baxımdan Azərbaycan Hökuməti Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə və genişləndirilməsinə böyük əhəmiyyət verir. Bank yerli maliyyə bazarlarının inkişafında da iştirak edir. 2019-cu ilin avqustun 1-də Bakı Fond Birjasında QDTİB-nin korporativ istiqrazları üzrə hərrac keçirilib və cəlb edilmiş vəsaitin özəl sektorun maliyyələşdirilməsi üçün istifadəsi nəzərdə tutulub. Bununla da QDTİB Azərbaycanda milli valyuta ilə istiqraz yerləşdirən ilk beynəlxalq maliyyə qurumu olub".

Nazir işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması prosesində QDTİB-i yerli və xarici sahibkarların biznes layihələrinə kredit dəstəyi göstərməyə dəvət edib.

"İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması prosesində beynəlxalq maliyyə təşkilatlarının, o cümlədən Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) yaxından iştirakını zəruri hesab edirik. Bankın kapital-resurs ehtiyatlarının digər beynəlxalq maliyyə qurumları ilə müqayisədə nisbətən aşağı olmasını, habelə daha çox özəl sektorun maliyyələşdirilməsi sahəsində ixtisaslaşmasını nəzərə alaraq QDTİB-i Qarabağda və Şərqi Zəngəzurda bir sıra fəaliyyətlərlə məşğul olacaq yerli və xarici sahibkarların biznes layihələrinə kredit dəstəyi göstərməyə dəvət edirik. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin yaradılması, bu imkanlardan səmərəli istifadə təkcə Azərbaycana yox, bütün region ölkələrinə böyük fayda gətirəcək, regional inkişafa ciddi təkan verəcək", - deyə S.Şərifov diqqətə çatdırıb.



İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlığa böyük əhəmiyyət verildiyini qeyd edib. Diqqətə çatdırılıb ki, QDTİB Azərbaycan iqtisadiyyatının özəl sektorunda fəal iştirak edən beynəlxalq maliyyə institutlarındandır və ölkəmizdə bir sıra layihələri maliyyələşdirib. Elnur Əliyev ölkə iqtisadiyyatının davamlı inkişaf etdiyini, Azərbaycandakı siyasi və makroiqtisadi sabitliyi vurğulayaraq investorlar üçün əlverişli şərait yaradıldığını, sahibkarlıq fəaliyyətinin genişləndirildiyini vurğulayıb, bankla bir sıra sahələrdə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb. Nazir müavini deyib ki, bu ilin yanvar-may aylarında Azərbaycanda ümumi daxili məhsul ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,2 faiz artıb. Ölkəmiz ötən il nəzərəçarpacaq nailiyyətlər əldə edib və bu tendensiya bu il də davam edir.

QDTİB-nin prezidenti Dmitri Pankin ölkəmizdə aparılan iqtisadi islahatların ölkənin makroiqtisadi sabitlik və dinamik inkişafına təkan verdiyini və bunun bank ilə Azərbaycan arasında mövcud əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli zəmin yaratdığını qeyd edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, KOB-ların innovativ inkişafının dəstəklənməsi strateji fəaliyyət gündəliyimizin əsas elementlərindən biridir. Mikro, kiçik və orta sahibkarlıq müasir iqtisadiyyatların əsas sütunu və hərəkətverici qüvvəsi hesab olunur və bu baxımdan KOB-ların fəaliyyətinin şaxələndirilməsi və innovasiya səviyyəsi bütövlükdə ölkənin inkişaf səviyyəsinin göstəricisidir. Biznesin innovativ transformasiyası və şaxələndirilməsi adekvat səviyyədə maliyyələşdirmə tələb edir və ənənəvi maliyyə sistemi mövcud problemlərin aradan qaldırılmasında çətinliklərlə üzləşir. Bu baxımdan davamlı maliyyə resurslarının təmin edilməsi üçün gələcəkdə alternativ maliyyə mənbələri, o cümlədən "Fintech" texnologiyası mühüm əhəmiyyət kəsb edəcək. Hazırda Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,6 faizini KOB subyektləri təşkil edir.

KOBİA-nın sədri deyib: "Biz hazırda KOB-ların maliyyə resurslarına çıxışını artıracaq KOB İnkişaf Fondunun yaradılması prosesindəyik. Fondun əsas özəlliyi onun qrantlar və texniki yardımlar təklif etmək imkanı ilə bağlıdır. Həmçinin investisiya üçün minimum layihə dəyəri tələbləri bazarda mövcud göstəricilərdən daha aşağı olacaq. KOB İnkişafı Fondunun təşkilati forması Açıq Səhmdar Cəmiyyəti olacaq ki, bu da öz növbəsində dövlət vəsaitləri ilə yanaşı, yerli və xarici investorların, eləcə də özəl sektorun vəsaitlərini cəlb etmək imkanı yaradacaq. Dövlət-özəl sektor tərəfdaşlığı və klasterləşmə milli iqtisadiyyatın şaxələndirilməsi və özəl sektorun proseslərə cəlb edilməsi, eyni zamanda, yeni çağırışlar fonunda resursların səfərbər edilməsi baxımından əlverişli modellərdir".

Biznes-forumda təşkil olunan panel müzakirələrdə AZPROMO-nun rəhbəri Yusif Abdullayev, "Azərbaycan İnvestisiya Şirkəti"nin icraçı direktorunun müavini Murad Abdullayev, QDTİB-nin vitse-prezidenti Hasan Damirhan və digərləri ölkəmizin əlverişli biznes və investisiya mühiti, KOB-ların inkişafı və onlara dövlət tərəfindən göstərilən dəstək tədbirləri, qeyri-neft sektoruna investisiyaların yatırılması imkanları, özəl biznesin maliyyəyə çıxış imkanlarının artırılması, QDTİB ilə əməkdaşlığın genişləndirilməsi barədə məlumat veriblər.

Tədbir çərçivəsində QDTİB ilə "Rabitəbank" ASC və "Turanbank" ASC arasında kredit müqavilələri imzalanıb. Müqavilələrə əsasən, QDTİB Azərbaycanda kiçik və orta biznesin inkişafına dəstək məqsədilə "Rabitəbank"a 10 milyon ABŞ dolları, "Turanbank"a isə 5 milyon ABŞ dolları məbləğində kredit ayıracaq.

Biznes-forum ikitərəfli görüşlərlə davam edib.

# Baş Qərargah rəisi MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib

**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Rusiya Federasiyasında səfərdədir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Kərim Vəliyev iyunun 24-də Moskvada keçirilən Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının 80-ci iclasında iştirak edib.

# Türkiyənin, İranın turizm şirkətlərinin təmsilçiləri və media nümayəndələri Naxçıvanın turizm potensialı ilə tanış olublar

**"Nuh diyarı - Naxçıvan" infoturu çərçivəsində Naxçıvan Muxtar Respublikasının turizm imkanları Türkiyənin və İranın turizm şirkətlərinə, media nümayəndələrinə nümayiş etdirilir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin birgə təşkilatçılığı ilə infoturun iştirakçıları bu məqsədlə dini turizmin cazibədar ünvanı "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və təbii şəfa mənbəyi Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.







Əshabi-Kəhfin sirli tarixi barədə qonaqlara ətraflı məlumat verilərək bildirilib ki, ziyarətgahın adı "mağara sahibləri" mənasını verir. Müqəddəs Qurani-Kərimdə "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmaqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilib. Ancaq son dövrlərdə aparılan araşdırmalar da sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən infotur iştirakçıları ziyarətgahı gəzərək nəhəng dağı heyranlıqla seyr ediblər.

Duzdağ Fizioterapiya Mərkəzi də qonaqların marağına səbəb olub. Qeyd edilib ki, mərkəz 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-ə çatdırılıb. Yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. Mərkəzin yeraltı sahəsində işıqlandırılma sistemi yüksək səviyyədə qurulub. Yer altındakı duz dağının qalınlığı isə 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında duz oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir.

Vurğulanıb ki, mərkəzdə oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri - bronxial astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Burada istənilən adam müalicə ala bilər. Yalnız müalicə kursları fərqlidir. Uşaqlar 12-15, böyüklər isə 14-18 gün yer altında yaşamaqla müalicə almış olurlar. Burada ilin istənilən fəslində müalicə almaq olar. Mərkəz horizontal şəkildə olduğundan buraya gələn xəstələr təxminən 300 metr məsafəlik yolu özləri qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır. Digər tərəfdən, Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması isə mərkəzdə rütubətin səviyyəsini normal saxlayır. Belə olan halda burada müalicə alan xəstələr qısa müddətdə sağala bilirlər.

# Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

İyunun 24-ü gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Baş prokuror MDB Dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib





İyunun 24-də Belarus Respublikasının paytaxtı Minsk şəhərində Müstəqil Dövlətlər Birliyi İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 32-ci iclası keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, MDB prokurorluq orqanlarının rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə ölkəmizi baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Şuranın iclasında K.Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər barədə danışaraq cinayət yolu ilə əldə edilmiş aktivlərin qaytarılması mövzusunda çıxış edib.

İclasda həmçinin MDB dövlətlərinin baş prokurorlarının və beynəlxalq təşkilatların rəhbərlərinin cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı prokurorluqların rolu haqda çıxışları dinlənilib.

Daha sonra təşkilati məsələlər müzakirə edilərək əməkdaşlıq haqqında müvafiq sənədlər imzalanıb. Katibliyin məsul vəzifələrinə seçkilər keçirilib. Baş prokuror Kamran Əliyev şuranın "Qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə görə" medalı ilə təltif olunub.

Şuranın 2023-cü ildə iclasının Bakı şəhərində keçirilməsi qərara alınıb.

# Azərbaycan, Ermənistan və Rusiyanın baş prokurorları arasında görüş keçirilib

İyunun 24-də Minskdə Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının üçtərəfli görüşü keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kamran Əliyev 1-ci və 2-ci Qarabağ müharibələrindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq bu prosesin davam etdirilməsinin önəmini qeyd edib.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti, həmçinin Qarabağa qanunsuz səfərlərin yolverilməzliyi diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata tam şəkildə riayət olunduğu bildirilib. Rusiyanın baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləyiblər.

# Azərbaycan və Rusiya prokurorluqları arasındakı münasibətlərdə müsbət dinamika mövcuddur

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.



Azərbaycan və Rusiya prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb. Həmçinin cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, iki ölkənin hüquq-mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər ətrafında müzakirələr aparılıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazov iyunun 24-də Qəbələ şəhərində vətəndaşlarla görüşüb. Energetika Nazirliyindən bildirilib ki, nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar elektrik enerjisi və qaz təchizatı, elektrik və qaz sərfiyyatına görə yaranan borc və cərimələr, elektrik xətt və dirəklərinin yenilənməsi, qurğu və avadanlıqlarının istismara yararsızlığı, sayğacların quraşdırılması, abonent kodunun aktivləşdirilməsi, transformatorun yerinin dəyişdirilməsi və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Vətəndaşların müraciətləri dinlənilərək qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Qəbulda Mingəçevir şəhəri, Qəbələ və Şəki rayonlarından olan 13 vətəndaş iştirak edib.

❖ ❖ ❖

İyunun 24-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) İdarə Heyətinin sədri Zaur Əliyev Balakən Rayon Mərkəzi Xəstəxanasında Balakən, Zaqatala və Qax rayon sakinlərini qəbul edib.

Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr departamentindən verilən məlumata görə, görüşdən əvvəl Zaur Əliyev Ümummilli Lider Heydər Əliyevin Balakən şəhərindəki abidəsini ziyarət edib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Agentliyin Şəki filialının rəhbəri, Balakən, Zaqatala, Qax və Şəki rayon mərkəzi xəstəxanalarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 31 nəfərin müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

*AZƏRTAC*

# Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası olub

İyunun 24-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Sadiq Qurbanov bildirib ki, iclasın gündəliyinə "Gədəbəy, Qoşa, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Söyüdlü, Qızılbulaq və Vejnəli perspektiv qızıl filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının "Azərqızıl" Dövlət Şirkəti ilə R.V. Investment Group Services, LLC ABŞ arasında bağlanmış sazişdə dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi daxil edilib. Komitə sədri sənəd barədə ətraflı məlumat verib.

Müzakirələr zamanı komitə üzvləri İltizam Yusifov, Asim Mollazadə, Naqif Həmzəyev, Nəsib Məhəməliyev, Əliabbas Salahzadə, Fatma Yıldırım sazişlə bağlı fikirlərini bildiriblər.

İclasın sonunda sənəd Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# "Azərbaycan" qəzetinin əməkdaşına Prezident mükafatı təqdim edildi

26 İyun Silahlı Qüvvələr Günü münasibətilə Abşeron rayonunda tədbir keçirilib. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində baş tutan görüşdə Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə, müharibə əlillərinə, veteranlara orden və medallar təqdim olunub.





Mərasimdə çıxış edən Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Kənan Seyidov qeyd edib ki, bu gün Azərbaycan Ordusunun adı dünyanın ən güclü silahlı qüvvələri sırasında çəkilir. Dünya Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli ordunun gücünə 44 günlük Vətən müharibəsində şahidlik etdi. Xalqımız Azərbaycan Ordusu ilə qürur duyur. Vətən müharibəsindən ilyarımdan çox vaxt keçsə də, hələ də xalqımız böyük zəfərin sevincini, fəxarət hissini yaşayır.

Mərasimdə çıxış edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev qeyd edib ki, şəhid ailələrinin, əlillərin və veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət tərəfindən ardıcıl olaraq sistemli tədbirlər keçirilir, bu kateqoriyadan olan insanlar yeni mənzillərlə, avtomobillərlə təmin edilirlər. Mərasimdə çıxış edən şəhid anaları övladları ilə bağlı xatirələrini bölüşüb, onların Vətən sevgisindən, döyüşlərdə göstərdikləri şücaətlərdən danışıblar. Şəhid anaları qürur hissi ilə vurğulayıblar ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindəki böyük zəfər şəhidlərin ruhlarını şad etdi. Onların qanı yerdə qalmadı.

Şəhid anaları həmçinin dövlətin onlara göstərdiyi xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürlərini çatdırıblar.

Çıxışlardan sonra "Vətən müharibəsi iştirakçısı" medalının və digər mükafatların təqdimolunma mərasimi keçirilib. Təltif olunanlar sırasında "Azərbaycan" qəzetinin Beynəlxalq həyat, idman və informasiya şöbəsinin redaktoru, baş leytenant Rəşad Baxşəliyev də var. Əməkdaşımız, ehtiyatda olan zabit kimi Vətən müharibəsi başlayan ilk gündən könüllü olaraq müzəffər Azərbaycan Ordusu sıralarında döyüş yolu keçib. Cəbrayıl, Qubadlı, Xocavənd və Şuşa istiqamətlərindəki uğurlu hərbi əməliyyatlarda iştirak edən Rəşad Baxşəliyev savaşdan sonra, 2021-ci ilin yanvar ayının 2-dək Xocavənd rayonunun müxtəlif istiqamətlərində taqım komandiri kimi komandanlığın verdiyi döyüş tapşırıqlarını layiqincə yerinə yetirib.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə Rəşad Baxşəliyev "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib, həmçinin ona müdafiə naziri, general-polkovnik Zakir Həsənovun müvafiq əmri ilə baş leytenant rütbəsi verilib.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin iyul ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

## CƏDVƏLİ

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | Rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyev** | **01** |
| 2. | **İsmayıllı** | İsmayıllı, Ağsu | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri **Bahar Muradova** | **01** |
| 3. | **Qobustan** | Qobustan, Şamaxı | Dövlət Gömrük Komitəsinin sədri **Səfər Mehdiyev** | **01** |
| 4. | **İmişli** | İmişli, Saatlı, Sabirabad, Cəbrayıl | Baş prokuror **Kamran Əliyev** | **05** |
| 5. | **Ağsu** | Ağsu, İsmayıllı | Ədliyyə naziri **Fikrət Məmmədov** | **06** |
| 6. | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | "Azərişıq" ASC-nin sədri **Vüqar Əhmədov** | **07** |
| 7. | **Yevlax** | Yevlax, Mingəçevir | Fövqəladə hallar naziri **Kəmaləddin Heydərov** | **08** |
| 8. | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** | **08** |
| 9. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar Quliyev** | **08** |
| 10. | **Bərdə** | Bərdə, Tərtər | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri **Zaur Mikayılov** | **08** |
| 11. | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | Gənclər və idman naziri **Fərid Qayıbov** | **09** |
| 12. | **Gəncə** | Gəncə, Samux, Kəlbəcər | Qida Təhlükəsizliyi Agentliyinin sədri **Qoşqar Təhməzli** | **13** |
| 13. | **Şirvan** | Şirvan, Hacıqabul | "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru **Ruslan Əliyev** | **13** |
| 14. | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | İqtisadiyyat naziri **Mikayıl Cabbarov** | **14** |
| 15. | **Şəki** | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi **Arzu Rəhimov** | **14** |
| 16. | **Şəmkir** | Şəmkir, Gədəbəy | "Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən **Köçərli Həsənov** | **14** |
| 17. | **Tovuz** | Tovuz, Qazax, Ağstafa, Gədəbəy | Ali Məhkəmənin sədri **Ramiz Rzayev** | **15** |
| 18. | **Qazax** | Qazax, Ağstafa, Tovuz | Ekologiya və təbii sərvətlər naziri **Muxtar Babayev** | **15** |
| 19. | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri **Rövşən Rzayev** | **15** |
| 20. | **Salyan** | Salyan, Neftçala, Biləsuvar | Baş prokuror **Kamran Əliyev** | **19** |
| 21. | **Tərtər** | Tərtər, Bərdə | Kənd təsərrüfatı naziri **İnam Kərimov** | **19** |
| 22. | **Qəbələ** | Qəbələ, Oğuz | Mədəniyyət naziri **Anar Kərimov** | **21** |
| 23. | **Şirvan** | Şirvan, Hacıqabul | "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən **İlham Mirzəliyev** | **21** |
| 24. | **Quba** | Quba, Qusar | Energetika naziri **Pərviz Şahbazov** | **22** |
| 25. | **Lənkəran** | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad | Təhsil naziri **Emin Əmrullayev** | **22** |
| 26. | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri **Saleh Məmmədov** | **22** |
| 27. | **Bərdə** | Bərdə, Tərtər | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri **Zaur Əliyev** | **22** |
| 28. | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş | Baş prokuror **Kamran Əliyev** | **28** |
| 29. | **Qobustan** | Qobustan, Şamaxı | Əmək və əhalinin sosial müdafiəsi naziri **Sahil Babayev** | **29** |
| Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır. | | | | |

# Azərbaycan ilə İran arasında regiona məxsus idman növləri üzrə birgə yarışlar təşkil etmək məsələləri müzakirə olunub





Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə İranın idman və gənclər naziri Seyid Həmid Səccadinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatı Gənclər və İdman Nazirlərinin Daimi Şurasının Bakıda keçirilən 3-cü iclasında iştirak edən İranın idman və gənclər naziri Seyid Həmid Səccadi səfər çərçivəsində MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ilə görüş imkanı əldə etdiyinə görə məmnunluğunu ifadə edib.

Çingiz Hüseynzadəni İran İslam Respublikasına rəsmi səfərə dəvət edən nazir sərhədyanı bölgələrdə birgə idman yarışlarının təşkil olunmasının vacibliyini vurğulayıb.

İranın idman və gənclər naziri Seyid Həmid Səccadi hər iki ölkəyə məxsus ənənəvi idman növlərinin xüsusilə zorxananın dünyada tanıdılması istiqamətində Azərbaycanın töhfə verə biləcəyinə inandığını da qeyd edib. "Regiona aid idman növləri üzrə birgə yarışlar təşkil etmək, idmançıların təlim məşq toplantılarının keçirilməsi, xarici ölkəyə getmək istəyən idmançıların elə Azərbaycana üz tutması məsələlərində MOK-un dəstəyinə ehtiyac var", - deyə nazir bildirib. İranın İdman və gənclər naziri Seyid Həmid Səccadi və İran parlament nümayəndələrini salamlayan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə ölkələrin idman potensiallarından səmərəli istifadə edilməsi üçün əməkdaşlığın vacibliyini vurğulayıb. Birgə təlim-məşqlər və yarışların təşkilinin mümkünlüyünü qeyd edən MOK-un vitse-prezidenti sərhədyanı ərazilərdə reallaşdırılan idman yarışlarındakı işbirliyinin vacibliyinə də diqqət çəkib. O, Azərbaycanın evsahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında zorxana idman növünün proqrama salındığını xatırladıb. İslam Həmrəyliyi İdman Federasiyasının vitse-prezidenti kimi buna nail olmaq üçün keçən prosesə də toxunub. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, əməkdaşlığın daha da genişləndirilməsi, birgə idman tədbirlərinin təşkili hər iki tərəf üçün faydalı ola bilər.

Görüşdə MOK-un baş katibi Azər Əliyev, İran İslam Respublikasının Azərbaycandakı səfiri Seyid Abbas Musəvi də iştirak edib.

# ANAMA ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlıq müzakirə edilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Sülyemanov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) ölkəmizdəki nümayəndəliyinin rəhbəri xanım Arian Baueri ilə səlahiyyət müddətinin başa çatması və xanım Draqana Kojiçlə nümayəndəliyin yeni rəhbəri təyin olunması ilə əlaqədar görüşüb.

ANAMA-nın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı minadan zərərçəkənlərə yardım layihəsi çərçivəsində psixoloji dəstəyin göstərilməsi və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə istiqamətində birgə fəaliyyətin icrası barədə müzakirələr aparılıb.

Səmimi görüşə görə minnətdarlığını bildirən Arian Bauer rəhbərlik etdiyi müddətdə qurum tərəfindən humanitar minatəmizləmə sahəsində göstərilən dəstək barədə məlumat verib və bu istiqamətdə atılacaq növbəti addımlarda ona uğurlar arzulayıb.

Draqana Kojiç iki qurum arasında mövcud səmərəli əməkdaşlığın inkişaf edəcəyinə və işğaldan azad edilmiş ərazilərin yaxınlığında yaşayan, eləcə də Böyük qayıdış layihəsi çərçivəsində yurdlarına qayıdacaq əhali arasında təhlükəsiz davranış qaydaları və məlumatlılığın artırılması sahəsində əlindən gələn dəstəyi göstərəcəyini bildirib.

Agentliyin İdarə Heyətinin sədri Vüqar Süleymanov fəaliyyəti dövründə ANAMA-ya göstərdiyi dəstəyə görə Arian Bauerə təşəkkürünü bildirib və gələcək işlərində ona uğurlar arzulayıb.

# Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə "Xalqımızı qalibiyyətə aparan Ordu" adlı tədbir təşkil edilib

İyunun 24-də Müdafiə Nazirliyinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində Azərbaycan Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun yaradılmasının 104 illik yubileyinə həsr olunmuş "Xalqımızı qalibiyyətə aparan Ordu" adlı tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin, Heydər Əliyev adına Ali Hərbi Məktəbin, veteran şuralarının, Dövlət Sərhəd Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Qarabağ müharibəsi veteranlarının, hərbi hissələrin, şəhid ailələrinin və digər müəssisələrin nümayəndələri iştirak ediblər.

Tədbirdə muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qəni-zadə bildirib ki, hazırda müzəffər Silahlı Qüvvələrimizin yaradılmasının 104-cü ildönümünü qürur hissi ilə qeyd edirik. "Bu qüruru bizə Vətən oğulları cəbhədə qazandığı unudulmaz qələbələrlə yaşadıb. Artıq iki ildir ki, ordumuz işğalçı Ermənistan ordusunu Qarabağda, Şuşada darmadağın etməklə rəsmi İrəvanı kapitulyasiyaya məcbur edib, işğal edilmiş torpaqlarımızı azad ediblər. Böyük Zəfərin qazanılması Azərbaycanın hərb tarixinin şərəfli səhifəsini təşkil edir".

Silahlı Qüvvələr Günü münasibətilə təbrik iştirakçılarını təbrik edən muzeyin rəisi deyib: "Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, həm də onun malik olduğu ordunun qüdrəti ilə də ölçülür".

Tədbirdə Abşeron Rayon Veteranlar Cəmiyyətinin sədr müavini ehtiyatda olan mayor Sahib Əsgərov, ehtiyatda olan zabit Elçin Axundovun məruzə və çıxışları dinlənilib, sənədli film nümayiş etdirilib.

Bədii hissədə Həzi Aslanov adına İdeoloji İş və Mədəniyyət Mərkəzinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin, Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin solistlərinin hərbi vətənpərvərlik mövzusunda ifaları dinlənilib.

# Şeyxülislam Allahşükür Paşazadə Vyanada KAICIID Beynəlxalq Mərkəzinin Direktorlar və Məşvərət şuralarının birgə iclasında iştirak edib





Vyanada KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Direktorlar Şurası və Məşvərət Şurasının birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə KAICIID Direktorlar Şurasının üzvü qismində iclasda iştirak edib.

İclasdan öncə KAICIID Beynəlxalq Mərkəzinin media departamentinə müsahibə verən QMİ sədri təşkilatın perspektivlərindən, onun hazırkı mənzil-qərargahının Vyanadan Lissabona köçürülməsi məsələlərindən danışıb. Şeyxülislam Allahşükür Paşazadə müsahibədə Azərbaycanın dinlərarası dialoqa, sülh və əməkdaşlığa hər zaman açıq olduğunu qeyd edib.

İclasda natiqlər KAICIID-in qərargahının Vyanadan Lissabona köçürülməsi barədə fikir mübadiləsi aparıblar, daha sonra müxtəlif dini konfessiyaları özündə birləşdirən təşkilatın yeni fəaliyyət proqramı elan olunub.

İclasda çıxış edən bütün Qafqazın şeyxi təşkilatın fəaliyyət proqramı ilə yanaşı, böyük Zəfərdən sonra yaranan yeni reallıqlar, Azərbaycanın Cənubi Qafqazdakı rolu, sülh, dinlərarası dialoq çağırışlardan danışıb.

Qeyd edək ki, KAICIID Dialoq Mərkəzi 2012-ci ildə Səudiyyə Ərəbistanı, Avstriya və İspaniya tərəfindən Roma Papası ilə Səudiyyə Ərəbistanı Kralının təşəbbüsü əsasında təsis olunub. Təşkilatın əsas prinsipləri dilindən, dinindən, cinsindən asılı olmayaraq, insanların hüquq və azadlıqlarının qorunması üzərində qurulub.

# Vyanada "Sülh naminə dinlərarası və mədəniyyətlərarası dialoqun, anlaşmanın və əməkdaşlığın təşviqi" mövzusunda beynəlxalq konfrans keçirilib

**İyunun 24-də Vyanada "Sülh naminə dinlərarası və mədəniyyətlərarası dialoqun, anlaşmanın və əməkdaşlığın təşviqi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Avstriyadakı səfirliyi, Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Azərbaycan Multikulturalizm Mərkəzi və Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Hofburq sarayında keçirilən konfransda hökumətlərin, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, dünyanın müxtəlif dini konfessiyalarının rəhbərləri, dövlət, elm və mədəniyyət xadimləri, diplomatik korpusun üzvləri iştirak ediblər.

Konfransda Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə, xarici işlər nazirinin müavini Fariz Rzayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri Kamal Abdulla, Latviyanın keçmiş prezidenti Valdis Zatlers, KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin baş katibi vəzifəsinin icraçısı Elham Şeyni, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin və digər ictimai xadimlər açılış nitqləri söyləyiblər.

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli bildirib ki, dünyada artan dözümsüzlük, ayrı-seçkilik və ekstremizm meyilləri münaqişə və böhranlar sayəsində daha da dərinləşir, cəmiyyətin ahəngdarlığına, təhlükəsizlik və sabitliyə təhdidlər yaradır. Eyni zamanda ksenofobiya və nifrət ritorikası populizmin güclənməsinə yol açır. Məhz buna görə də mədəniyyətlərarası və dinlərarası dialoq etimad və qarşılıqlı anlaşmanın gücləndirilməsi, sülh və əmin-amanlığın təşviqi qeyd edilən təzahürlərin qarşısının səmərəli şəkildə alınmasında mühüm rol oynaya bilər. Azərbaycan milli, regional və beynəlxalq səviyyələrdə mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə xüsusi diqqət yetirərək, sülh mədəniyyətinin təşviqinə böyük əhəmiyyət verir. 2011-ci ildən Azərbaycan tərəfindən UNESCO, Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və İslam Təhsil, Elm və Tədris Təşkilatı ilə əməkdaşlıq çərçivəsində təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platformalardan biridir. Həmçinin bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ötən həftə Bakıda "Qlobal dünya nizamına təhdidlər" devizi altında IX Qlobal Bakı Forumu keçirilib. Bu forum Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi istiqamətində həyata keçirdiyi digər layihələr kimi, dövrümüzün mühüm məsələlərinin qlobal beynəlxalq müzakirə platformasına çevrilməsi baxımından çox əhəmiyyətlidir.

QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında XXI əsrdə təhdid və çağırışların səngimədiyi bir dövrdə sülh və ədalətin təmininə xidmət edən dinc birgəyaşayış, qarşılıqlı anlaşma mədəniyyəti kimi humanist dəyərlərin xüsusilə özəl əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd olunub ki, bu gün beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş terrorizm, ksenofobiya, antisemitizm, xristianofobiya, islamofobiya, ekstremizm və radikalizmin qarşısının alınmasında dövlət rəhbərlərinin, ictimai və dini liderlərin birgə, davamlı əməkdaşlığı vacibdir. Bütün mövcud problemlərin fövqündə duran sülhün bərqərar olması, qorunması məramı ilə beynəlxalq təşkilatların strukturlarında sülh naminə dini liderlərin iştirakı ilə real əməkdaşlıq müstəvisinin təşkili yönündə səylər təqdir olunmalıdır. Bu, şübhəsiz, mədəniyyətlər və dinlərarası dialoqun yeni, daha üstün keyfiyyət mərhələsi olar.

Şeyxülislam diqqətə çatdırıb ki, bu gün dünyada milli, irqi, dini dözümsüzlük təzahürlərini önləyə biləcək multikultural həyat tərzinə böyük ehtiyac var. Bu baxımdan Azərbaycanın uğurlu birgəyaşayış modeli bütün dünya üçün örnək ola bilər. Multikultural zənginlik Azərbaycan dövlətinin ən böyük sərvətlərindəndir. Azərbaycan Prezidenti İlham Əliyevin xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək irəli sürdüyü multikulturalizm və İslam həmrəyliyi kimi ümumbəşəri əhəmiyyətli ideyalar, müəllifi olduğu mədəniyyətlərarası dialoqa dair Bakı prosesi Azərbaycanın dövlət liderinin XXI əsrdə xüsusi bir missiya olaraq həyata keçirdiyi müdrik təşəbbüslərdir və dünya miqyasında insan həmrəyliyinə xidmət edir. Azərbaycan Prezidenti Beynəlxalq Mədəniyyətlərarası və Sivilizasiyalararası dialoq forumlarının, Qlobal Bakı Forumlarının mütəmadi keçirilməsinin təşəbbüskarıdır. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində tolerantlığın beynəlxalq müstəvidə təşviqi, bəşəri dəyərlərə diqqət və himayə prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan həmçinin Dini Liderlərin Ümumdünya sammitlərinin keçirildiyi ənənəvi məkandır. Azərbaycan Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə öz ərazi bütövlüyünü bərpa edib.

Qeyd edilib ki, 2020-ci ildə Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüquq normaları əsasında Ermənistanın 30 illik hərbi təcavüzünə son qoyaraq dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edib. Hazırda Azərbaycan işğal dövründə törədilmiş vandalizm aktları nəticəsində dağıdılmış, təhqir olunmuş milli, dini-mənəvi abidələri bərpa edir, əraziləri minalardan təmizləyərək yenidənqurma işləri aparır, Cənubi Qafqaz regionunun ümumi tərəqqisinə xidmət edən perspektivli iqtisadi layihələrlə çıxış edir. Təəssüf olsun ki, Azərbaycan bu istiqamətdə səy göstərərkən Ermənistanda yenə də revanşizm, nifrət çağırışları səslənir.

QMİ sədri bu mövzu ilə bağlı erməni din xadimləri və Ermənistan cəmiyyətini öz xalqını dinc yanaşı yaşamağa, sülh quruculuğu işinə təşviq etməyə çağırış edib. Bildirilib ki, bəşəriyyəti təhdid edən, gələcəyinə təhlükə yaradan problem və humanitar xarakterli böhranlar - yoxsulluq, su və qida çatışmazlığı, iqlim və ekosistem problemləri ilahi düzənin pozulması, insanların mənəvi-əxlaqi köklərdən ayrılmasının nəticəsi, törədilən ekoloji və müharibə cinayətlərinin fəsadlarıdır.

Konfransda "Davamlı inkişaf və sülh naminə mədəniyyətlərarası və dinlərarası dialoq: Müxtəlifliyi təşviq və idarə etmək istiqamətində milli və beynəlxalq səviyyədə həyata keçirilən tədbirlər" və "Dinlərarası dialoq, mədəni və dini irs multikulturalizm ənənələrinin və birgəyaşayış, tolerantlıq və anlaşmanın gücləndirilməsinin əsas istiqamətləri kimi" mövzularında sessiyalar təşkil olunub. Sessiyalarda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Gürcüstanın keçmiş xarici işlər naziri Eka Tkeşelaşvili, Bosniya və Herseqovinanın keçmiş Baş naziri Zlatko Laqumdziya, Avropa Türk-İslam Birliyinin prezidenti Sərdar Çələbi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, Alban-Udi Xristian Dini İcmasının sədri və Bakı Dövlət Universitetinin müəllimi Robert Mobili, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycanda Katolik kilsəsinin apostol prefekturasının yepiskopu Vladimir Fekete və digər panelçilər çıxış ediblər. Azərbaycanda Alban Apostol Kilsəsinin tarixi keçmişi, müasir vəziyyəti, icma və kilsələrə dövlət qayğısına dair təqdimat böyük maraqla qarşılanıb.

Konfrans çərçivəsində həmçinin "Azərbaycanın multikultural kimliyində dini irs" mövzusunda sərgi təşkil olunub. Sərginin açılışında Şeyxülislam Allahşükür Paşazadə, səfir Rövşən Sadıqbəyli və yepiskop Vladimir Fekete çıxış ediblər. Qeyd olunub ki, uzun əsrlər boyu müxtəlif sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan milli-mədəni rəngarənglik ab-havasına malik, müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq, qarşılıqlı anlaşma və qarşılıqlı anlaşma şəraitində yaşadığı ölkədir. Azərbaycanlıların həyatına tarixən xas olan multikulturalizm və tolerantlıq bu gün milli mənsubiyyətindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyatının ayrılmaz xüsusiyyətinə çevrilib. Təkcə xalqımızın bugünkü tolerant həyat tərzi deyil, həm də bu xalqın yaratdığı ədəbi-sənət, elmi-fəlsəfi, siyasi-hüquqi mənbələr və sənədlər Azərbaycan xalqının zəngin multikultural keçmişindən xəbər verir.

Sərgidə Azərbaycanda dinlərarası və mədəniyyətlərarası tolerantlığı əks etdirən fotolar nümayiş etdirilib. Tədbir iştirakçıları əsrlər boyu eyni torpaqda yaşayan Azərbaycanın müsəlman, pravoslav, protestant və katolik xristian və yəhudi icmaları haqqında silsilə fotoreportajlarla tanış olublar.

Xatırladaq ki, konfrans Ermənistan parlamentinin spikeri Alen Simonyanın da Vyanaya səfəri ilə eyni vaxta təsadüf edir. Azərbaycan tərəfinin Vyanada təşkil etdiyi beynəlxalq konfransda sülh, əmin-amanlıq naminə multikultural dəyərlərin təşviqi, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafından bəhs edildiyi halda erməni spiker səfər zamanı ənənəvi qaydada Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Başqa sözlə, Azərbaycan Vyanada bəşəri dəyərlərdən, dinlər, mədəniyyətlərarası dialoqdan danışır, Ermənistan isə qondarma iddialar səsləndirir, münaqişənin bitmədiyini iddia edir. İki yanaşma arasındakı fundamental fərq yəqin ki, beynəlxalq ictimaiyyət və Avstriya rəsmilərinin diqqətindən qaçmayacaq.

# Qlobal bəla ilə qətiyyətli mübarizə

**Qlobal bəlaya çevrilən narkomaniya hələ də həlli çarəsiz qalan problemlərdəndir. Yeni reabilitasiya mərkəzləri yaradılsa da, müxtəlif müalicə üsulları tətbiq edilsə də, dövlət strukturları, xüsusən hüquq-mühafizə orqanları qətiyyətli tədbirlər həyata keçirsə də, maarifləndirici işlər aparılsa da, təəssüf ki, bu bəla hələ də bizimlə birgədir, aramızda yaşayır...**







## Əməliyyat-axtarış və profilaktiki tədbirlər görülür

26 İyun Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günüdür. Dünya ölkələri, beynəlxalq təşkilatlar narkotik maddə asılılığından bəşəriyyəti xilas etmək üçün daim yeni istiqamət və üsullarla fəaliyyətlərini davam etdirirlər.

Azərbaycanda da bu yöndə mübarizə aparan Daxili İşlər Nazirliyi dünya təcrübəsinə əsaslanmaqla daim fəaliyyətini təkmilləşdirir, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində işləri sistemli şəkildə davam etdirir. Bu sahədə əsas diqqət maarifləndirmə tədbirlərinin artırılmasına və sosial medianın imkanlarından istifadəyə yönəldilib.

Öncəliklə qeyd edək ki, ölkəmizdə narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə aparan struktur Daxili İşlər Nazirliyidir. Nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin vəzifəsi ölkə ərazisində narkotiklərlə bağlı cinayətkarlığın vəziyyətinin öyrənilməsi, təhlil edilməsi, bu növ cinayətlərin qarşısının alınması, əməliyyat-axtarış və profilaktiki tədbirlərin həyata keçirilməsidir.

Bəs, görəsən, son dövrlərdə adıçəkilən idarə hansı tədbirləri həyata keçirib? DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru İslam Hümbətov bildirdi ki, ötən il daxili işlər orqanlarının qanunsuz dövriyyədən çıxardıqları narkotik vasitələrin 55 faizini (1 ton 490 kq heroin, 198 kq tiryək) güclü təsirə malik olan maddələr təşkil edib. Bu da 2020-ci ilin eyni dövrünə nisbətən 1 ton 171 kiloqram çoxdur. Ümumilikdə isə 3 ton 44 kiloqram müxtəlif növ narkotik vasitə, 318 kiloqram psixotrop maddə və 50 tondan çox kultivasiya edilmiş çətənə kolları dövriyyədən çıxarılıb.

Ümumiyyətlə isə ötən 3 il ərzində qanunsuz dövriyyədən 7 ton 213 kiloqram (20196 fakt üzrə 7156 satış, 11800 saxlama, 986 əkin, 254 digər) müxtəlif növ narkotik vasitə, 590 kiloqram psixotrop maddə və 70 tondan çox kultivasiya edilmiş çətənə kolları dövriyyədən çıxarılıb. Bununla yanaşı, 1 ton 328 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı da uğurla alınıb. Qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin 3 ton 216 kiloqramını marixuana, 2 ton 916 kiloqramını heroin, 586 kiloqramını tiryək, 41 kiloqramını həşiş, 455 kiloqramını isə digər narkotik vasitələr təşkil edib.

## Beynəlxalq təcrübələrdən istifadə mühümdür

Narkomaniyaya qarşı mübarizədə ixtisaslaşmış beynəlxalq təşkilatlar, qurumlar hər zaman öz təcrübələrini bölüşürlər. Araşdırmalar göstərir ki, təcrübə mübadiləri nəticəsində mübarizə daha effektiv və güclü xarakter daşıyır. Yeniliklər paylaşılır, tövsiyələr verilir, eyni zamanda sual doğuran, həll edilməsi zəruri olan məsələlərin müxtəlif aspektləri müəyyənləşdirilir.

Baş Narkotiklə Mübarizə İdarəsi də bu istiqamətdə fəaliyyətini davam etdirir. İdarə müntəzəm olaraq narkomaniyaya qarşı mübarizədə geniş təcrübələrdən istifadə etmək üçün beynəlxalq əlaqələr yaradır. Transmilli mütəşəkkil cinayətkar qruplarla mübarizədə beynəlxalq və regional təşkilatlarla, həmsərhəd və digər ölkələrlə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addımlar atılır.

Ötən bir ildə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi, POMPİDOU, GUAM və digər beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq davam etdirilib, Baş idarənin əməkdaşları müxtəlif təşkilatların, eləcə də ayrı-ayrı dövlətlərin təşəbbüsü ilə videokonfrans və əyani formatda keçirilən seminar və iclaslarda informasiya və təcrübə mübadiləsi aparıblar.

## Bitib-tükənməyən cinayət qrupları, "zəhər" satan dəstələr

İstifadə və satışa gedən yolda tonlarla "zəhər" məhv edilsə də, hələ də bir çoxlarını "caynağına" keçirməkdədir. Buna görə də, qanunsuz dövriyyəyə daxil olan narkotik vasitələri zərərsizləşdirməklə yanaşı, onların, istehsalında və satışında birbaşa rol oynayan şəxslər də daim narkotikə qarşı mübarizə aparan təşkilatların, orqanların əsas hədəflərindədir.

İslam Hümbətov deyir ki, transmilli mütəşəkkil cinayətkar qrup və dəstələrlə əlaqəli ölkə vətəndaşlarının və əsnəbilərin hüquqazidd əməllərinin ifşasına yönəlmiş əməliyyat-axtarış tədbirləri zamanı ötən il 29 əcnəbi vətəndaş tutulub ki, onlardan ümumi çəkisi 63 kq olan müxtəlif növ narkotik vasitə və 10 kq psixotrop maddə götürülüb.

Bu növ cinayətlərə görə məsuliyyətə cəlb olunmuş 6391 nəfərdən ən az qismi azyaşlılardan, ən çox qismi isə 30 yaş və ondan yuxarı həddə olanlardan ibarət olub.

Baş idarə və onun regional şöbələri tərəfindən isə 2021-ci il ərzində aşkar edilmiş 585 cinayət faktı üzrə məsuliyyətə cəlb olunmuş 599 nəfərdən 1 ton 468,2 kiloqram narkotik vasitələr, 204,5 kiloqram psixotrop və 4,0 kiloqram güclü təsiredici maddələr, eləcə də, 30 tona yaxın kultivasiya edilmiş çətənə kolları aşkar edilərək götürülüb.

## Bu ilin ilk 3 ayında 30 cinayətkar qrup zərərsizləşdirilib

Baş Narkotiklərlə Mübarizə İdarəsi bu il fəaliyyətini daha da gücləndirib və mühüm əməliyyatlar həyata keçirib. Qurumun reallaşdırdığı xüsusi əməliyyatlar nəticəsində bu ilin birinci rübündə narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 2757 cinayət faktı aşkarlanıb. Cinayət faktlarının törədilməsində daha çox faizi narkotik vasitələrin saxlanılmasında iştirak edənlər tutsa da, növbəti yerləri satış edənlər və qanunsuz narkotik bitkilərin becərilməsi ilə məşğul olan şəxslər təşkil edib. Qanunsuz dövriyyədən 1 ton 064,3 kiloqram heroin, tiryək, marixuana, həşiş və s. kimi narkotik vasitələr götürülüb.

Keçirilmiş tədbirlərin əsasında bu il 2021-ci illə müqayisədə daha çox uğurlu nəticələr əldə edilib. Belə ki, dövriyyədən çıxarılan narkotik vasitələrin miqdarı ümumilikdə 64,7 kiloqram, psixotrop maddələr isə 21,6 kiloqram çox olub. Eyni zamanda 22 fakt üzrə 106 kiloqramdan çox narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Əvvəllər cinayət törətmiş şəxslər tərəfindən təkrar törədilmiş 576 fakt üzrə qanunsuz dövriyyədən 216,8 kq müxtəlif növ narkotik vasitələr çıxarılıb.

Narkotik xassəli bitkilərin qanunsuz əkilib-becərilməsi ilə bağlı isə 16 fakt aşkar edilib ki, həmin faktlar üzrə götürülmüş, çəkisi 110 kiloqramdan artıq olan çətənə bitkiləri prosessual qərar qəbul edilməsi üçün istintaq orqanlarına verilib. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 73 nəfərdən ibarət 30 cinayətkar qrup zərərsizləşdirilib. Onlardan 276 kiloqram narkotik vasitə, 38,7 kiloqram psixotrop və 560 qram güclü təsir edən maddə götürülüb.

## Psixotrop maddələrin onlayn satışı ilə bağlı 49 sosial şəbəkə profili müəyyən edilib

Hazırda sosial həyatımız yalnız canlı ünsiyyətdən ibarət deyil, eyni zamanda virtual əlaqələr də mövcuddur. Bura da böyük bir aləm olduğundan hər növ insanla doludur. Buna görə də, yaşama təsir edən zərərli vərdişlərin böyük bir qismi ilə sosial şəbəkələrdə də asanlıqla rastlaşa bilirik.

Xüsusilə sosial şəbəkələrdə narkotiklərin açıq satışı, müxtəlif üsullardan istifadə edərək narkotik aludəçilərinə çatdırılması və bir sıra cəlbedici paylaşımlarla təklif və təşviq edilməsi kimi hallar işin ciddiyyətini daha da artırır. Təbii ki, üzləşdiyimiz belə vəziyyətlə bağlı Baş Narkotiklərlə Mübarizə İdarəsinin də üzərinə böyük yük düşür.

Son dövrlər narkotik vasitələrin internet şəbəkəsi üzərindən və tətbiqetmə proqramları vasitəsilə satışı faktlarının artması bu sahədə əməliyyat-texniki tədbirlərin daha məqsədyönlü təşkilini zəruri edib. Təkcə 2021-ci ildə həmin hüquqazidd əməllərlə mübarizə çərçivəsində qeyri-leqal dövriyyədən ümumilikdə, bir tondan çox müxtəlif növ narkotik vasitə və psixotrop maddə çıxarılaraq bu cinayətlərin iştirakçısı olan əcnəbilər barədə yaşadıqları ölkələrin aidiyyəti qurumlarına sorğular ünvanlanıb. Eyni zamanda narkotik vasitələrin onlayn satışının həyata keçirilməsində istifadə olunan 50-dək sosial şəbəkə profili müəyyən edilib.

Müvafiq sahədə aparılan təhlil və araşdırmalar göstərir ki, narkotiklərin satışını təşkil edən cinayətkar qruplar bu kimi hüquqazidd əməllərini internet saytları, sosial şəbəkələr, ani mesaj ötürmə proqramları və digər texnologiyalardan istifadə edərək həyata keçirirlər. Əlaqələr qurulub, satışlar həyata keçiriləndən sonra ödəniş müxtəlif bank kartları və elektron ödəniş vasitələrindən istifadə etməklə başqa şəxslərlə təmasda olmadan edilir.

## Sosial şəbəkələrdə mübarizə tədbirləri gücləndirilib

DİN-də hazırlanmış xüsusi tədbirlər planı əsasında internet informasiya resurslarında sosial videoçarxlar yayımlanır, nazirliyin feysbuk, instaqram, yutub, tiktok hesabları vasitəsilə bu işə cəmiyyətdə tanınmış şəxslər, bloqçular, jurnalistlər cəlb edilir. Həmçinin ötən il antinarkotik təbliğat mövzusunda 3 nominasiya üzrə keçirilən müsabiqələrdə qaliblər müəyyən edilərək mükafatlandırılıb. Müvafiq tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə bu il də yeni müsabiqə elan olunub.

İl boyu həyata keçirilən işlərin icmalı da sosial platformalardakı müvafiq hesablarda paylaşılır. 2021-ci ildə narkotiklərlə mübarizədə həyata keçirilmiş əməliyyat tədbirlərinə dair 451 süjet və 6 sosial videoçarx hazırlanaraq kütləvi informasiya vasitələrində və internet resurslarında yayımlanıb, DİN əməkdaşları tərəfindən televiziya və radio kanallarına 250 müsahibə verilib. Eyni zamanda aidiyyəti qurumların əməkdaşları cəlb edilməklə 14 min nəfərdən artıq auditoriya üçün maarifləndirmə tədbirləri təşkil edilib.

DİN-in sosial şəbəkə hesablarına daxil olmuş vətəndaş müraciətlərinə də daim çevik reaksiya verilir. Ötən il ünvanlanmış 1097 müvafiq müraciət araşdırılıb və onların əksəriyyəti müsbət nəticə ilə həll edilib. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı vətəndaşlar da aktivlik göstərirlər. Narkotiklə mübarizədə fəal mövqe tutan vətəndaşlardan daxil olan məlumatlar əsasında effektiv nəticələri olan bir çox əməliyyat tədbirləri həyata keçirilib.

Hazırda narkotiklərin neqativ təsirləri və zərərləri barədə Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış sosial reklamların əhatə dairəsinin genişləndirilməsi üçün Dövlət Reklam Agentliyi ilə sıx əməkdaşlıq edilir. Əhalinin daha çox toplaşdığı yerlərdə antinarkomaniyaya çağırış şüarları ilə reklam lövhələri yerləşdirilib.

Bu bir həqiqətdir ki, ölkəmizdə son illərdə narkomaniya ilə bağlı sədalar daha yüksəkdən və daha yaxından eşidilir. Ətrafda, qonşuluqda rastlanan, hətta ailələrin dağılmasında belə başlıca səbəb kimi göstərilən narkotik vasitələrdən istifadə bir çoxlarının yaşamına əngəl olur, aludəçiləri canlı ölüyə çevirir. Bunun üçün isə yalnız kompleks və birgə mübarizə tədbirləri reallaşdırılmalıdır.

*Dövlətimiz, o cümlədən Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə hər bir vətəndaşın dəstəyinə ehtiyac var. Bu qlobal bəlaya qarşı birgə mübarizə aparmalıyıq, cəmiyyət üçün təhlükəli olan belə bir işi təkcə hüquq-mühafizə orqanlarının üzərinə atmamalıyıq.*

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Gəncənin su və yol problemləri paralel həll olunur



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun sakinlərlə görüşləri artıq ənənə halına çevrilib. Belə görüşlərdə o, sakinləri narahat edən məsələlərlə yerində tanış olur, müvafiq tədbirlər görür.

Növbəti görüş şəhərin 18 nömrəli tam orta məktəbində keçirilmişdir. Yerli icra orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, habelə ətraf ərazidə yaşayan sakinlərin iştirakı ilə keçirilən görüşdə qaldırılan bütün məsələlərə həssaslıqla yanaşılmış, sakinlərin arzu və istəklərinin bir çoxu yerindəcə həll edilmişdir.

Müraciətlər arasında işlə təminat, qaz və su sayğaclarının quraşdırılması, ev növbəliyi, şəhərin bir sıra ərazilərində asfalt yol örtüyünün yenilənməsi və digər məsələlər yer almışdır. Sakinlərə məlumat verilmişdir ki, yolların asfaltlanması məsələsi daim nəzarətdədir. Bildirilmişdir ki, Gəncə şəhərində su xətlərinin yenilənməsi məqsədilə "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi icra olunur. Layihə çərçivəsində işlər "Azərsu" ASC-nin sifarişi ilə "Azəraqrartikinti" ASC tərəfindən görülür. Gəncə şəhərinin küçə və prospektlərinin, məhəllə və qəsəbədaxili yollarının asfaltlanması, abadlıq işlərinin görülməsi də sözügedən layihəyə paralel şəkildə aparılır. Belə ki, təkrar qazıntı işlərinin aparılmaması üçün layihənin icra edilmədiyi və ya tam yekunlaşmadığı ərazilərdə asfalt və bərpa işlərinin görülməsi məqsədəuyğun hesab edilmir. Layihə çərçivəsində işlərin tam başa çatdırıldığı küçə və prospektlərdə isə cari il ərzində asfalt işlərinin görülməsi nəzərdə tutulur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# ADAU-da bağçılıqla bağlı konfrans keçirilmişdir

Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq, Üzümçülük və Şərabçılıq, eləcə də Tərəvəzçilik elmi-tədqiqat institutlarının birgə təşkilatçılığı ilə "Bağçılıqda prioritet istehsal sahələrinin inkişafında elm-tədris-istehsalat tendensiyasının tətbiqi və nəzəriyyədən praktikaya gedən yol" adlı konfrans keçirilmişdir.



Konfransda çıxış edən ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov meyvəçilik və tərəvəzçiliyin ölkəmizdəki tarixindən, mövcud vəziyyətindən və bu sahəyə göstərilən dövlət dəstəyindən danışmış, görülən işlərə ADAU və elmi-tədqiqat institutlarının birgə dəstək verməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Sonra Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, dosent İlham Qaraqurbanlı "Müasir dünya bağçılığı: nailiyyətlər, problemlər və perspektivlər", Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru Vüqar Səlimov "Üzümçülükdə mövcud potensial və perspektiv inkişaf", Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu publik hüquqi şəxs idarə heyətinin sədri, fəlsəfə doktoru Elmar Allahverdiyev "Tərəvəzçiliyin davamlı inkişafında əsas tendensiyalar və innovativ texnologiyalar", ADAU-nun Bağçılıq kafedrasının professoru Zaur Həsənov "Sitrus meyvəçiliyinin inkişafına innovativ yanaşmalar" mövzularında məruzələrlə çıxış etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Yasamal rayonunda daha bir həyət təmir edildi





İyunun 24-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, 1, Dadaş Bünyadzadə küçəsi, 3 və 4 ünvanında 1000 nəfərdən çox sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə müxtəlif idman qurğuları, uşaq meydançaları və şahmat meydançası salınıb. Eyni zamanda ərazidə söhbətgahlar, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, elektrik sistemi, qaz, su və istilik xətləri yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 100 ədədə qədər müxtəlif cinsli ağac və minlərlə kol əkilib, yaşıllıq zolağı salınıb, daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" (green barriers) yaradılıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Qeyri-neft sektoru üzrə məhsul istehsalında artım davam edir

## Bu sahənin inkişafına yönəldilmiş 3,1 milyard manatdan çox vəsait səmərəsiz qalmamışdır



**Ölkədə həyata keçirilən islahatların əsas hədəflərindən biri, daha doğrusu, birincisi qeyri-neft sektorunun inkişafını təmin etməkdir. Məqsədə nail olmaq üçün qanunvericilik bazası təkmilləşdirilir və bu sahədə özəl sektora geniş imkanlar verilir. Bunun sayəsində qeyri-neft sektorunda, xüsusilə qeyri-neft sənayesində məhsul istehsalının həcmi və çeşidi ildən-ilə artır.**

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-may aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin dəyəri 3,3 faiz artaraq 34,9 milyard manat təşkil etmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,1, sənayenin qeyri-neft sektorunda isə 14,3 faiz artmışdır. Bu fakt bir daha sübut edir ki, ölkədə aparılan islahatlar sayəsində qeyri-neft sənayesi dinamik inkişaf edir. Açıqlanan digər rəqəmlərə görə, cari ilin 5 ayında sənayedə qeyri-dövlət sektorunun payı 88,7 faiz olmuşdur. Ümumi istehsalın 94,1 faizi sənaye məhsullarının istehsalı, 5,9 faizi isə sənaye xarakterli xidmətlərin hesabına formalaşmışdır. Yeri gəlmişkən, onu da qeyd edək ki, 5 ay ərzində ölkə üzrə qeyri-neft sektorunun inkişafına 3,1 milyard manatdan çox vəsait yönəldilmişdir.

Emal sənayesində cari ilin yanvar-may aylarında 7 milyard 58,7 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Həmin dövrdə qida sənayesində məhsul istehsalı 8,9 faiz artmışdır. Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində 237 milyon manat dəyərində məhsul istehsal edilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə geyim istehsalında 50,6 faiz artım müşahidə olunmuşdur. Sənayenin qeyri-neft sektoru üzrə kimya sənayesində, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatları sahələrində də artım müşahidə edilmişdir. Belə ki, həmin dövrdə bu sahələr üzrə ümumilikdə 946,6 milyon manatlıq məhsul istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalında 2,1 dəfə, kimya sənaye məhsullarının istehsalında 25,2, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 19,9 faiz artım qeydə alınmışdır. Bununla yanaşı, rezin və plastik kütlə məmulatlarından bərk polietilen borular, borucuqlar, şlanqlar, qolların istehsalı 66,6, məsaməli polistirol lövhələr və zolaqların istehsalı 3,9, kimya məhsullarından lak-boya məmulatlarının istehsalı 15,8 faiz artmışdır.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalında da vəziyyət yaxşıdır. Belə ki, sahələr üzrə yanvar-may aylarında 704 milyon manatlıq məhsul istehsal olunmuşdur. Həmin dövrdə hazır metal məmulatlarının istehsalı sahəsində 43,3, metallurgiya sənayesi məhsullarının istehsalında 34,2 faiz artım qeydə alınmışdır. Cari ilin 5 ayında həmçinin polad boruların istehsalı 2,1 dəfə, armaturun 87,4, polad tökmə istehsalı 48,3 faiz artmışdır. Eyni zamanda hazır metal məmulatlarının istehsalı üzrə 14 min 111,6 ton qara metaldan müxtəlif konstruksiyalar istehsal edilmişdir.

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalında isə cari ilin 5 ayında 81,7 milyon manatlıq məhsul istehsal olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə elektrik avadanlıqlarının istehsalı 56,7 faiz artmışdır. Kompüter, elektron və optik məhsulların istehsalında azalma müşahidə edilsə də, 5 ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatların istehsalında rekord həcmdə - 3,5 dəfə artım qeydə alınmışdır. Həmçinin həmin aralıqda qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatlarının istehsalı 36,2 faiz artmışdır.

Maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələri üzrə də yüksək nailiyyətlər qazanılmışdır. Hesabat dövründə 221,6 milyon manatlıq məhsul istehsal edilmiş, keçən ilin müvafiq dövrü ilə müqayisədə digər nəqliyyat vasitələrinin istehsalı 4,5, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,9 dəfə, maşın və avadanlıqların istehsalı isə 51,9 faiz artmışdır.

Qeyri-neft sektorunda məhsul istehsalının artımı ixracda da özünü göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ilin əvvəlindən ötən 4 ay ərzində qeyri-neft məhsulları üzrə ixracın dəyəri keçən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 38,5, real ifadədə 25 faiz artaraq 965,5 milyon dollar olmuşdur. Həmin müddət ərzində ixracın strukturunda plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, qara metallar və ondan hazırlanan məmulatların və s. payı üstünlük təşkil etmişdir. Bununla bərabər, ixracda gübrələrdə 6 dəfə, emal edilməmiş alüminiumda 84,1, qara metallardan çubuqlarda 70,4, qara metallardan borularda 17,1, sement klinkerlərində 2,8, bentonit gilində 10,7 faiz artım müşahidə olunmuşdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Daha 100 qazi və şəhid ailəsi üçün kiçik bizneslər yaradılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda Məşğulluğa Dəstək Layihəsi" üzrə, əsasən, qazi və şəhid ailəsi üzvlərindən ibarət daha 100 şəxs aktivlərlə təmin olunub.

Özünüməşğulluq proqramına dəstək məqsədi daşıyan layihənin iştirakçılarına istehsal-xidmət sahələri üzrə avadanlıqlar təqdim edilib. Verilmiş aktivlər hesabına onlar kiçik bizneslərini yaradıblar.

Layihə üzrə bu il həssas qruplara aid artıq 3 minə yaxın şəxsə öz bizneslərini qurmaları üçün aktivlər verilib.

"Azərbaycanda Məşğulluğa Dəstək Layihəsi" 22 min işsiz şəxsin özünüməşğulluq proqramına cəlb olunmasını və onların kiçik biznesə çıxışını təmin etməyi nəzərdə tutur.

## Goranboyda selin fəsadları aradan qaldırılır





**Xəbər verildiyi kimi, iyunun 22-də axşam saatlarında başlanan güclü leysan yağışları nəticəsində Goranboy rayonunun dağ kəndlərində çaylarda suyun səviyyəsi yüksəlmiş, sel suları daşaraq Aşağı Ağcakənd və Yuxarı Ağcakənd qəsəbələrində fərdi yaşayış evlərinə və təsərrüfatlara, əhalinin mal-qarasına, nəqliyyat vasitələrinə, iaşə və digər sosial obyektlərə ziyan vurmuşdur.**

Goranboy Rayon İcra Hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyasının üzvləri dərhal selin fəsad törətdiyi ərazidə olmuşlar. Xocalı Rayon İcra Hakimiyyətinin Aşağı Ağcakənd qəsəbəsində yerləşən inzibati binasında operativ qərargah yaradılmışdır. Goranboy RİH-in başçısı Məhərrəm Quliyev və rayonun digər rəhbər şəxsləri komissiya üzvləri ilə birgə zərərçəkmiş sakinlərlə görüşmüş, fərdi yaşayış evlərinə baş çəkmişlər.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin, Fövqəladə Hallar Nazirliyinin və "Azərsu" ASC-nin məsul əməkdaşları, eləcə də aidiyyəti xidmət sahələrinin rəhbərləri Aşağı və Yuxarı Ağcakənd qəsəbələrində olmuş, zərərçəkmiş yaşayış evlərinə baxış keçirmiş, vətəndaşların problemləri ilə maraqlanmışlar. Seldən zərərçəkmiş çay və kanalların təmizlənməsi, mövcud fəsadların aradan qaldırılması və gələcəkdə kollektor-drenaj şəbəkələrinin qurulması ilə bağlı müzakirələr aparılmış, aidiyyəti üzrə məsul şəxslərə tapşırıq və tövsiyələr verilmişdir.

Hazırda ərazidə komissiya tərəfindən dəymiş ziyanın miqyasının müəyyənləşdirilməsi və fəsadların aradan qaldırılması ilə bağlı operativ iş aparılır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Demoqrafiya

# Doğulanların sayı dünyasını dəyişənlərin sayını iki dəfəyəcən üstələyir

## Nikahlar artır, boşanmalar azalır

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin ilk dörd ayı ərzində Azərbaycanda 40 min 36 körpə anadan olub. Keçən ilin eyni dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə, yəni 12,1-dir.**

Beləliklə, ilin əvvəlindən ölkə əhalisinin sayı 16 min 812 nəfər və ya 0,2 faiz artaraq may ayının 1-i vəziyyətinə 10 milyon 173 min 178 nəfərə çatıb. Xatırladaq ki, 10 milyonuncu vətəndaşımız 2019-cu il aprelin 6-da anadan olub və bu hadisə ölkəmizdə dövlət səviyyəsində bayram kimi qeyd edilib.

Azərbaycanda əhalinin sayı, əsasən, təbii artımla və nisbətən miqrasiya yolu ilə çoxalır. Təbii artım yeni doğulanların sayının dünyasını dəyişənlərin sayını üstələməsi ilə yaranır. Hazırda ölkəmizdə anadan olan uşaqların sayı həyatdan köçən insanların sayından iki dəfəyə qədər çoxdur.

Ölkəmizdə təkuşaqlı ailəyə o qədər də tez-tez rast gəlinmir. Belə ki, gənc ailələrin əksəriyyətində bir qayda olaraq ən azı iki uşaq böyüyür. Üç və daha çox uşağı olan ailələr də az deyil. Bu isə iqtisadi terminlə ifadə etsək, əhalinin təkrar istehsalının təmin olunması deməkdir. Yeri gəlmişkən, qeyd edək ki, bu ilin yanvar-aprel aylarında doğulan körpələrin 1144-ü əkiz, 60-ı üçəmdir. Yəni 572 ailə eyni zamanda iki, 20 ailə isə üç övlad sahibi olub.

Əlbəttə, əhalinin təbii artım göstəriciləri heç də bütün ölkələrdə qənaətbəxş deyil. Bir sıra ölkələrdə əhali kənardan gələnlərin hesabına artır və müsbət olmayan bu hal keçmiş SSRİ məkanının bəzi yerlərində də müşahidə edilir. Həmin ölkələrdə bu problemi aradan qaldırmaq üçün xüsusi dövlət proqramları qəbul olunur. Bir sıra digər ölkələrdə isə həmin istiqamətdə demoqrafik siyasət, əsasən, iqtisadi vasitələrdən istifadə olunmaqla həyata keçirilir ki, buraya uşaqlara qulluq üçün yardım, gənc ailələrə güzəştli kreditlərin ayrılması, doğumdan sonrakı ödənişli dövrün uzadılması və s. daxildir.

Lakin təbii artımın yüksək göstəricilərindən narahat olan ölkələr də var. Onlar bu sahədə ciddi ailə planlaşdırılması siyasəti həyata keçirirlər.

İstənilən ölkənin demoqrafik vəziyyətini öyrənərkən vacib məsələlərdən biri kimi doğulan uşaqların cinsi və yaş qrupları üzrə rəqəmlərə diqqət yetirilir. Məsələn, hazırda Azərbaycanda doğulanlar arasında oğlanların xüsusi çəkisi 53,2, qızların xüsusi çəkisi isə 46,8 faizdir.

Doğulanların cins strukturunda oğlan uşaqlarının artımı 1990-cı illərin əvvəllərindən müşahidə olunur. Dünyaya gələn körpələr arasında qızların xüsusi çəkisi 2000-ci ildəki 46,5 faizdən 2009-cu ildə 46 faizədək azalıb. 2013-cü ildə yeni doğulanlar arasında qızların sayı 46,4 faizədək, sonrakı dövrdə bir qədər də artsa belə, oğlanların sayı yenə də çox olaraq qalır. Yəni hazırda anadan olan uşaqların 53,2 faizi oğlandır. Başqa sözlə, təxminən doğulan hər 100 qıza 115 oğlan düşür. Bioloji norma göstəricisi isə 105-107 təşkil edir.

Beləliklə, ölkədə qadınların sayı azalır. Xatırladaq ki, İkinci Dünya müharibəsindən əvvəl Azərbaycan əhalisinin ümumi sayında kişilərin xüsusi çəkisi qadınlardan çox olsa da, sonrakı illərdə əhalinin ümumi sayında qadınlar həmişə üstünlük təşkil edib. Lakin 2003-cü ildən etibarən kişilərin sayı artmağa başlayıb. Aydın məsələdir ki, əhalinin cins strukturunun dəyişməsinin başlıca səbəbi yeni doğulanların cins nisbətinin pozulmasıdır.

Hazırda ölkədə kişi və qadınların xüsusi çəkisi eynidir. Elə buradaca xatırladaq ki, ötən ilin eyni vaxtında ölkə əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edirdi. Bir az da geriyə nəzər salsaq, vəziyyət daha aydın olar. 2008-ci ildə qadınların sayı 51, 2012-ci ildə 50,4, 2015-ci ildə 50,2 faiz olub və indi artıq 50 faizdir. Qadınların sayının getdikcə azalmasının hansı fəsadlara gətirib çıxaracağı barədə həyəcan təbili çalınmağının vaxtı çoxdan çatıb.

Dünyaya göz açan oğlan və qız uşaqları arasında demoqrafik balansın pozulmasının əsas səbəbi hamıya bəllidir... Qızların sayının süni surətdə azaldılması insanlıq baxımından böyük günah olmaqla bərabər, həm də yaxın gələcəkdə baş verəcək ciddi demoqrafik pozuntuların təməlini qoyur. Belə çıxır ki, Azərbaycan çətin bir sosial problemlə üzləşə, xaricdən gəlin "idxal etməli" ola bilər.

Uşağın ana bətnində cinsinin müəyyənləşdirilməsinə maraq və bundan törəyən fəsadlar bir çox ölkələrdə mövcuddur. Bəzi ölkələrdə bu hal çox ciddi xarakter aldığından, dövlət məsələyə müdaxilə etməli olub. Yəni körpənin cinsinin əvvəlcədən öyrənilməsi qadağan edilib. Fikrimizcə isə məsələnin yoluna qoyulmasının ən düzgün yolu insanların özlərinin şüurunda müsbət dəyişikliklərin baş verməsidir.

"Dünya gəlimli-gedimlidir" deyiblər. Bu ilin dörd ayında Azərbaycanda 23 min 748 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölümün səviyyəsi azalaraq 8-dən 7,2-yə düşüb.

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyir. Bu sözlərin arxasında Azərbaycan xalqının gündən-günə yüksələn rifah halını, dövlətin öz vətəndaşına sonsuz qayğısını ifadə edən böyük bir həqiqət dayanır. Bu həqiqəti bir çox faktlar təsdiqləyir ki, onlardan biri də ölüm hallarının azalmasıdır.



Ölkədə ölümün səviyyəsi ötən əsrin 90-cı illərinin birinci yarısında ermənilərin Azərbaycana hərbi təcavüzü nəticəsində artsa da, atəşkəs əldə olunduqdan sonra azalaraq sabitləşib. Belə ki, əhalinin hər 1000 nəfəri hesabı ilə ölənlərin sayı 1990-cı ildəki 6,1-dən 1995-ci ildə 6,7-yə qədər artıb, sonrakı illərdə azalaraq 2013-cü ildə 5,8 olub. 2019-cu ildə isə hər 1000 nəfərə hesabı ilə ölüm səviyyəsi əmsalı bundan da aşağı - 5,6 olub.

Ölkəmizdə ölümə əsasən hansı hallar səbəb olur? Ən çox tənəffüs, əsəb və qan dövranı sistemlərinin, həzm orqanlarının xəstəlikləri, yeni törəmələr, eləcə də yoluxucu və parazitar xəstəliklər qeydə alınır. Xatırladaq ki, dünyanın bir çox ölkələrində üstünlük təşkil edən də təxminən bu xəstəliklərdir.

Ötən müəyyən dövr ərzində koronavirus pandemiyası və erməni cəlladlarının cinayətləri nəticəsində yarımçıq qırılan ömürləri istisna etməklə, son illərdə ölkədə ümumiyyətlə, ölümün səviyyəsi aşağı düşür, yaxud sabit qalır. Bunun səbəblərindən biri əlbəttə ki, insanın gün-güzəranının yaxşılaşmasıdır. Bu mənada əhalinin gəlirlərinin çoxalması, əməkhaqqının getdikcə yüksəlməsi, pensiya və müavinətlərin artması böyük rol oynayır.

Azərbaycan vətəndaşının sağlamlığının qorunması dövlətin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Təsadüfi deyil ki, son illər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, müayinələrin sayı artıb, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır. Ölkədə yeni müasir müalicə ocaqları inşa edilib və əvvəlkilər yenidən qurulub.

Ölüm hallarının azalmasına əlbəttə ki, ölkədə qida məhsullarının keyfiyyətinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşması, yol-nəqliyyat hadisələrinin azalması, insanlar üçün yaradılan rahat məişət şəraiti və s. amillər də təsir göstərir.

Dünyada analoqu olmayan faktdır ki, ölkə Prezidenti hər bir vətəndaşın səhhətinin, sağlamlığının qeydinə qalır. Koronavirusun tüğyan etdiyi dövrdə dövlət başçısının dediyi sözləri xatırlamaq kifayətdir: "Pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır".

Bütün deyilənlərlə yanaşı, insanı yaşadan digər amillər də var. Bunlar xalqımızın milli-mənəvi dəyərləridir. Çətin gündə bir yerdə olmaq, bir-birinin dərdinə şərik çıxmaq, xoş hadisələr baş verəndə sevinci bölüşmək, yaşa dolmuş valideynlərə övladların qayğısı ömrü uzadan amillər sırasındadır.

Nəhayət, boşanmalar haqqında. Onların sayı azalıb! Dörd ayda ölkədə 5 min 43 boşanma qeydə alınıb. Keçən ilin müvafiq dövrünə nisbətən hər 1000 nəfərə hesabı ilə boşanmanın əmsalı 1,6-dan 1,5-ə düşüb.

Artıq koronavirus da geri çəkilib. Şadlıq evləri qapılarını nişanlıların, övladlarına toy-büsat qurmaq istəyən valideynlərin, qadağasız şənliklər üçün darıxan hamımızın üzünə geniş açıb. Odur ki, toyların, yeni qurulan ailələrin sayının artması da təsadüfi deyil. Dörd ayda keçən ilin eyni dövrünə nisbətən əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,5-dən 5,6-ya qədər artıb. Bu dövrdə 18 min 506 nikah bağlanıb. Ötən ilin dörd ayında qurulan ailələrin sayı isə 14 min 778 idi.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Kommunikasiya meneceri" layihəsi çərçivəsində ADA Universitetində təşkil olunan "İctimai əlaqələr və medianın əsasları" təlim kursuna yekun vurulub

**Mədəniyyət Nazirliyinin "Kommunikasiya meneceri" layihəsi çərçivəsində ADA Universitetində 20-24 iyun tarixlərdə keçirilən "İctimai əlaqələr və medianın əsasları" təlim kursunun bağlanış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, ADA Universitetində ixtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılova çıxış edərək beş gün davam edən təlimin əhəmiyyəti barədə danışıb. Təlimin müvəffəqiyyətlə başa çatmasını vurğulayan N.İsmayılova bütün təlim iştirakçılarını təbrik edib.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva ilk olaraq universitet haqqında məlumat verib. Bildirib ki, universitet ilk layihələrini diplomatlar üçün təşkil edib, sonradan universitet genişlənərək digər dövlət qurumları ilə əlaqələr qurub və bir çox universitetlərlə anlaşma memorandumu imzalayıb. Universitetdə yeni ixtisaslar açılıb. Daha sonra bu kimi təlim proqramlarının hər zaman uğurlu olmasından danışan A.Hacıyeva deyib: "Əminəm ki, siz, əslində, çox təcrübəli insanlarsız, neçə illərdir hərəniz müxtəlif təşkilatlarda çalışırsız, amma buna baxmayaraq, nələrisə öyrənmək istəyiniz sizi bura qədər gətirdi. Biz ilk dəfə deyil ki, Mədəniyyət Nazirliyi ilə birgə belə bir layihələr təşkil edirik. Düşünürəm ki, indi sizə veriləcək sertifikatlar sizin üçün bu təlimdən gözəl bir xatirə olaraq qalacaq".

"Bu layihənin gerçəkləşməsində Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadənin çox böyük rolu var. Biz təkliflər versək də bu rəhbərlik tərəfindən təsdiqlənməli, nazirliyin rəhbərliyi bu layihəni dəstəkləməli idi. Düşünürəm ki, buna nail ola bildik və birgə gözəl, önəmli bir layihə ərsəyə gətirə bildik. Keçirilən təlimlər "Ünsiyyət və netvörkinq bacarıqları", "Ənənəvi və sosial media ilə işləmək bacarıqları", "Kommunikasiya planının qurulması", "Media işçiləri üçün əsas nitq və yazı bacarıqları", "İctimaiyyətlə əlaqələr fəaliyyətində iş bölgüsü" mövzularını əhatə edib. 16 regionun iştirak etdiyi təlimlərin proqramı tək bilik qazanmaqdan ibarət deyil, insanlarla şəbəkələr qurmaq, dost olmaq, kommunikasiya qurmaq bacarığı haqqındadır", - deyə "Kommunikasiya meneceri" layihəsinin koordinatoru, Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin əməkdaşı Məhəmməd Həmzəyev bildirib.

Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə bu layihənin uğurla bitməsini vurğulayaraq bildirib ki, birlikdə çox önəmli bir layihə icra olundu və uğurla yekunlaşdı: "Layihə hər kəsdə böyük maraq yarada bilib. Bu ilk olaraq bizim pilot layihəmizdir. Layihə Mədəniyyət Nazirliyinin strateji kommunikasiya siyasətinin struktur qurumları, tabe müəssisə və təşkilatlarında effektiv şəkildə həyata keçirilməsi, o cümlədən ictimaiyyətlə, media subyektləri və nümayəndələri ilə münasibətlərin möhkəmləndirilməsi, eləcə də əlaqələrin genişləndirilməsi, həmçinin sosial media fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyır. Biz çox istəyərdik ki, region idarələr ayrılıqda öz kommunikasiya işini görərək media ilə müştərək və həmçinin müstəqil şəkildə bu işi qura bilsinlər".

ADA Universiteti İctimai və Beynəlxalq Münasibətlər Məktəbində kommunikasiya və rəqəmsal media proqramının rəhbəri, layihənin təlimçisi Şəfəq Mehrəliyeva Azərbaycanın ümumbəşəri mədəni irsdə yerinin fasiləsiz yüksəlməsindən, eləcə də UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs Siyahısında Azərbaycan məkanlarının adlarının sürətlə çoxalmasından danışaraq, "Kommunikasiya meneceri" layihəsi barədə təəssüratlarını bölüşüb.

Qeyd edək ki, beş gün davam edən təlimlərə yerli və xarici mütəxəssislər cəlb olunub. Təlimləri ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva, ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev, ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər Məktəbində kommunikasiya və media proqramının rəhbəri Şəfəq Mehrəliyeva aparıb.

Onu da vurğulayaq ki, kommunikasiya menecerləri media, sosial media və ictimaiyyət ilə əlaqələr üzrə məsul nümayəndə olaraq çalışdıqları qurumların tədbir və layihələrinin mediada işıqlandırılmasını, qurumların fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasını və bundan irəli gələn digər vəzifələrin yerinə yetirilməsini təmin edəcəklər.

Sonda təlim iştirakçıları sertifikatlarla təltif olunub.

# Azərbaycan 2025-ci ildən buğda ixracatçısına çevrilə bilər

Məlumdur ki, hazırda dünyanı narahat edən əsas məsələlərdən biri Rusiya-Ukrayna qarşıdurması üzündən buğda ixracında yaranan çətinliklərdir. Ukrayna Prezidenti Volodimir Zelenski bildirmişdir ki, ölkəsinin buğda ixrac edə bilməməsi səbəbindən Şimali Afrikanın bir çox dövlətlərində taxıl ehtiyatı tükənib. O, həmçinin bəyan etmişdir ki, qlobal ərzaq böhranı Rusiya-Ukrayna müharibəsi davam etdikcə qalacaq.



Ukraynanın dövlət başçısı ölkəsinin hazırda dünya bazarına 22-25 milyon ton həcmində taxıl ixrac etmək imkanı olduğunu bildirmişdir. Cari ilin biçinindən sonra isə bu rəqəm 75 milyon tona çata bilər. İndi əsas məsələ bu məhsulun ixrac olunması üçün yaranmış problemlərin aradan qaldırılmasıdır. Odessa limanı mühasirədə olduğu üçün taxıl əsasən dəmir yolu ilə daşınır ki, bu da kifayət etmir.

İndi keçək ölkəmizə. Məlum olduğu kimi və çox təəssüf ki, Azərbaycan ərzaqlıq buğda ilə özünü tam təmin edə bilmir. Yerli istehsalla ərzaqlıq buğdaya olan tələbatın az bir hissəsini qarşılamaq mümkündür. Ölkəmizdə istehsal edilən təxminən 1,8 milyon ton buğdanın keyfiyyət baxımından heç də hamısı ərzaqlıq istifadə üçün yararlı deyil. Bu üzdən biz ildə təxminən 1 milyon 200 min - 1 milyon 300 min ton buğda idxal etməyə məcburuq. Onu isə əsasən, Rusiya və Qazaxıstandan idxal edirik. Mütəxəssislər bu məhsulun qiymətinin bahalaşması ilə əlaqədar hər iki ölkədə daha çox məhsul istehsal olunacağını bildirirlər. Deməli, bizim buğda idxalında problemimiz olmayacaq. Ancaq idxal həm asılılıq yaradır, həm də ölkədən valyuta axınına səbəb olur. Təbii ki, hər iki hal ölkəmiz üçün əlverişli deyil.

Dövlət səviyyəsində taxıl məhsullarının daxili bazarda bahalaşmasının qarşısını almaq üçün mütəmadi tədbirlər görülür. Məsələn, buğda ixracatçısı olan sahibkarlara müxtəlif güzəştlər edilir ki, mümkün qədər çörək və digər un məmulatlarının qiymətləri qalxmasın. Hazırda ölkədə çörək və digər un məhsullarının qiymətlərinin münasib olması da bununla bağlıdır. Lakin bu, müvəqqəti xarakter daşıyan tədbirlərdir, problemi kökündən həll etmək lazımdır.

Bu həllin əsas yolu istehsalı artırmaqdır. Bunun üçün isə taxıl istehsalçısı olan fermerlərə dövlət dəstəyi gücləndirilməlidir. Çünki bütün kənd təsərrüfatı məhsulları kimi buğda əkini də risk altında olur, yəni iqlim dəyişikliyi üzündən fermerin ciddi ziyana düşmək ehtimalı var. Buna görə də onun etibarlı qarantı olmalıdır. Son dövrlər bu istiqamətdə görülən işlər təqdirəlayiqdir. Dövlət aqrar sektorda fəaliyyət göstərən fermerlərə məhsulların sığorta olunmasında böyük dəstək verir. Hazırda aqrar sığorta mexanizminin tətbiqi sayəsində ölkə üzrə əkinəyararlı 287 min hektar torpaq sahəsi sığortalanıb. Bu, ölkə üzrə ümumi əkin sahələrinin 15, buğda və arpa əkin sahələrinin 30 faizi deməkdir. Amma, göründüyü kimi, bu, aşağı rəqəmdir. Ona görə də həmin istiqamətdə tədbirlər genişləndirilməlidir.

Bəlkə də həm də bu səbəbdən cari il ölkə üzrə buğda əkinlərinin sahəsində azalma olmuşdur. Belə ki, ötən il 608,5 min hektar sahədə payızlıq buğda əkilmişdisə, bu il məhsul üçün əkin sahələri 6,4 min hektar azalaraq 602,1 min hektara düşmüşdür. Lakin yazlıq buğda əkinləri keçən ilkindən 2,2 dəfə çox olmaqla 4,2 min hektar təşkil edir. Bununla belə, ölkənin cari ildə özünü təmin edəcək qədər keyfiyyətli buğda istehsalı real görünmür. Ona görə də bu istiqamətdə İsraillə sıx əməkdaşlığa başlanıb. İsrail mətbuatının yazdığına görə, iki ölkənin birlikdə həyata keçirməyə hazırlaşdığı böyük layihə 2025-ci ildən etibarən Azərbaycanın buğda ixracatçısına çevrilməsinə hesablanıb.

Artıq neçə gündür ölkədə taxıl biçilir. Xatırladaq ki, bu il ölkədə 1 milyon 19 min 934 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Əkin sahələrinin 606 min 338 hektarı buğda, 413 min 596 hektarı arpa sahələridir. Aran rayonlarında arpa biçini optimal müddətdə başa çatıb. Hazırda həmin bölgələrdə buğda biçininə start verilib.

Biçinə 1000-ə yaxın taxılbiçən kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 417, fiziki və hüquqi şəxslərin isə 569 kombaynı iştirak edir. ASC tərəfindən hazırda biçin gedən rayonlara biçin aparılmayan dağlıq ərazilərdə yerləşən bölmələrdən əlavə kombaynlar dislokasiya olunub.

"Aqroservis"in kombaynları ilkin mərhələdə sahəsi 50 hektaradək olan kiçik və orta təsərrüfatlarda biçin aparır. Biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir. Rayonların kombaynlara tələbatının öncədən müəyyənləşdirilməsi, texnikaların biçindən əvvəl tələbata uyğun şəkildə rayonlarda dislokasiya edilməsi, "Aqroservis" ASC tərəfindən sosial biçin siyasətinin həyata keçirilməsi ötən illərdəki kimi, bu il də biçin prosesində texnika ilə təminatda problem olmayacağını söyləməyə əsas verir.

Qayıdaq yazının əvvəlində toxunduğumuz məsələyə. Cari ilin yanvar-may aylarında Azərbaycan xaricdən 355 min 625 ton buğda idxal edib. Dövlət Gömrük Komitəsindən verilən xəbərdə qeyd edilir ki, bu, ötən ilin eyni dövründəkindən 36,6 min ton azdır. Lakin həcm ifadəsindəki azalmaya baxmayaraq, buğda üçün xaricə ödədiyimiz pul artıb. Belə ki, 2021-ci ilin yayında 392 min ton buğdaya 99,8 milyon dollar ödəmişdiksə, bu ilin eyni dövründə 355,6 min tona 124 milyon dollardan yuxarı vəsait xərclənib. Beləliklə, aydın olur ki, ötən il buğdanın bir tonunu 254,4 dollara almışdıqsa, bu il 348,8 dollara almalı olmuşuq.

Buğda idxalının azaldılmasının bir yolu da məhsuldarlığın artırılmasından keçir. Bunun üçün ilk növbədə daha məhsuldar toxum sortlarından istifadə edilməlidir. Eyni zamanda becərmədə müasir standartlar tətbiq olunmalıdır. Ölkəmizdə hazırda buğda istehsalı hər hektardan 31-32 sentnerdir. Dünyanın inkişaf etmiş ölkələrində bu rəqəm 70-80 sentnerdir. Həmin göstəricinin 90 sentnerə çatmasına nail olan ölkələr də var. Biz belə ölkələrin qabaqcıl təcrübələrindən istifadə edib məhsuldarlığı artırmaqla tələbatımızı ödəyə bilərik. Bu, yeganə və əsas yoldur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# ABŞ-da silah gəzdirmək qadağası sərtləşdirildi

## Birləşmiş Ştatlar Senatı 30 il ərzində ilk dəfə yeni qanun qəbul etdi

ABŞ Senatı təxminən 30 ilin ən mühüm qanunu olan silaha nəzarət üzrə qanun layihəsini qəbul edib. 15 respublikaçı qanun layihəsini dəstəkləmək üçün Konqresin yuxarı palatasındakı demokratlara qoşulub. Ümumilikdə 65 senator onun lehinə, 33-ü əleyhinə səs verib.






Qanun layihəsi Buffaloda supermarketdə və Uvaldda ibtidai məktəbdə 31 nəfərin ölümünə səbəb olan son kütləvi qətllərdən sonra qəbul edilib.

İndi qanun Prezident Bayden tərəfindən imzalanmadan əvvəl Nümayəndələr Palatası tərəfindən təsdiqlənməlidir.

### Prezidentdən çağırış

Səsvermədən sonra yaydığı bəyanatda Prezident Nümayəndələr Palatasının üzvlərini, özünün dediyi kimi, "qanun layihəsinə dərhal səs verməyə və sənədi iş masasına göndərməyə" çağırıb: "Bu gecə, 28 illik fəaliyyətsizlikdən sonra hər iki partiyanın Konqresdəki üzvləri ölkə daxilində ailələrin çağırışını nəzərə alaraq cəmiyyətimizdə silahlı zorakılıqla mübarizə üçün qanun qəbul etmək məqsədilə bir araya gəldilər. Uvaldda və Buffaloda ailələr və çoxsaylı keçmiş faciəli atışmalar bizdən tədbirlər görməyi tələb edirdi. Bu gün biz hərəkət edirik."

Spiker Nensi Pelosi, respublikaçıların müqavimətinə baxmayaraq, qanun layihəsini Nümayəndələr Palatasından qısa zamanda keçirməyə söz verib. Qeyd edək ki, respublikaçıların Konqresin aşağı palatasındakı lideri Kevin Makkarti partiya üzvlərini qanun layihəsinin əleyhinə səs verməyə çağırıb.

### Qanun nəyi dəyişəcək?

İslahatlara yaşı 21-dən aşağı olan alıcıların bioqrafik məlumatlarının daha sərt yoxlamaları, həmçinin psixi sağlamlıq proqramları və məktəb təhlükəsizliyinin təkmilləşdirilməsi üçün federal büdcədən ayrılan 15 milyard dollar maliyyə daxildir.

Ayrı-ayrı ştatları öz qanunlarında islahatlar keçirməyə təşviq etmək və təhlükə yaradan insanlardan odlu silahları müsadirə etməyə başlamaq üçün vəsait ayrılması nəzərdə tutulur.

Layihə həm də mövcud boşluqlardan birini bağlayır və nikahda olmayan tərəfdaşları ilə sərt davranışa görə mühakimə olunmuş şəxslərə silah satışını qadağan edir.

### "Bu, dərdin əlacı deyil"

Təklif olunan islahatlar onilliklər ərzində ilk dəfə həm demokratlar, həm də respublikaçılar tərəfindən bu qədər yüksək səviyyədə dəstək alıb. Partiyanın ən mühafizəkar senatorları Co Mançin və Kirsten Sinema da daxil olmaqla Senatdakı bütün 50 demokrata bəzi respublikaçılar, o cümlədən partiyanın Senatdakı lideri Mitç Makkonnell və sabiq prezident Donald Trampın yaxın müttəfiqi Lindsi Qrem də qoşulublar.

Bir sıra ənənəvi mühafizəkar hüquq müdafiə təşkilatları, o cümlədən "Polisin Qardaşlıq Ordeni" və Beynəlxalq Polis Rəisləri Assosiasiyası da qanun layihəsini dəstəkləyiblər.

Senatda demokratik çoxluğun lideri Çak Şumerin dediyinə görə, bu, silah zorakılığının ölkəmizə necə təsir etdiyinə qarşı əlac deyil, lakin düzgün istiqamətdə çoxdan gecikmiş bir addımdır.

2024-cü ildə Respublikaçılar Partiyasından prezidentliyə namizədliyini irəli sürəcəyi güman edilən Texas senatoru Ted Kruz qanun layihəsini "uşaqlarımızı qorumaq üçün ciddi addımlar atmaq əvəzinə qanuna tabe olan vətəndaşları tərk-silah etməyə cəhd" kimi qiymətləndirib.

Milli Atıcılıq Assosiasiyası proqnozlaşdırılan şəkildə qanun layihəsinə qarşı çıxıb və onun zorakılığı dayandırmayacağını bildirib.

ABŞ Prezidenti Co Bayden Uvaldda və Buffaloda baş verən atışmalardan sonra silaha nəzarətlə bağlı sərt addımlar atmağa çağırıb.

Bundan əvvəl Prezident bildirib ki, yeni təkliflər düzgün istiqamətdə atılan addımdır, lakin bu kifayət deyil. O, Texasda və Buffaloda kütləvi atışmalarda istifadə edilən avtomat tüfənglərə qadağa qoyulmasını və ya ən azı minimal yaş həddinin artırılması da daxil olmaqla daha geniş islahatların həyata keçirilməsini təkid edir. Texaslı atıcının 18 yaşı tamam olduqdan bir neçə gün sonra iki yarıavtomatik tüfəng aldığı güman edilir.

### ABŞ-da silah hüququnda fikir ayrılığı var

ABŞ dünyanın zəngin ölkələri arasında odlu silahdan ən yüksək ölüm nisbətinə malikdir. "Gun Violence Archive" (Silah Zorakılığı Arxivi) qeyri-kommersiya tədqiqat qrupunun məlumatına görə, bu il ölkədə 20900-dən çox insan silahlı zorakılıq nəticəsində həlak olub. Buraya qətllər və intiharlar da daxildir.

Bununla belə, ABŞ-da çoxları Konstitusiyaya İkinci Düzəlişlə qorunan silah hüququnu yüksək qiymətləndirirlər.

Silahlara nəzarət haqqında son əhəmiyyətli federal qanun 1994-cü ildə qəbul edilib. O, mülki istifadə üçün avtomat tüfənglər və böyük tutumlu maqazinlərin istehsalını qadağan edib, lakin 10 ildən sonra müddəti başa çatıb.

2012-ci ildə Konnektikutda Sendi Huk məktəbində 20 uşaq və 6 böyüyün ölümü ilə nəticələnən atışmadan sonra konqresmenlər qanunvericiliyi sərtləşdirməyə çalışsalar da, lazımi sayda səs toplaya bilmədilər.

Yeni qanun layihəsi üzrə səsvermə Nyu York ştatında qanuni olaraq silah gəzdirmək hüququnu məhdudlaşdıran qanunun Ali Məhkəmə tərəfindən ləğv edildikdən bir neçə saat sonra keçirilib. Bu, ölkədə silaha sahib olmaq məsələsində dərin fikir ayrılığının bariz nümunəsidir.

Məhkəmə qərara alıb ki, Nyu York hakimiyyəti sakinlərdən odlu silahların ictimai yerlərdə gizlədilməsi üçün üzürlü səbəb göstərmələrini tələb etməklə Konstitusiyanı pozur.

Bununla əlaqədar Mitç Makkonnell bildirib ki, məhkəmənin qərarı və qəbul olunmuş qanun layihəsi əlamətdar hadisədir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Əcnəbiləri ölkə ərazisinə qanunsuz keçirən şəxslər saxlanılaraq məsuliyyətə cəlb ediliblər

Xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının dövlət sərhədindən qanunsuz olaraq ölkə ərazisinə keçirilmələri barədə daxil olmuş məlumatlarla əlaqədar Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Dövlət Sərhəd Xidməti ilə birgə araşdırmalar aparılıb.


Rasif Ağayev


Ənvər İsayev

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikası vətəndaşları - 1991-ci il təvəllüdlü Ağayev Rasif Nufiəli oğlu və 1970-ci il təvəllüdlü İsayev Ənvər Abasxan oğlunun İran İslam Respublikasında yaşayan müəyyən şəxslərlə qabaqcadan sövdələşərək həmin ölkədən xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə mühafizə olunan dövlət sərhədini nəzarət-buraxılış məntəqələrindən kənar gizli keçirilməsini təşkil etmələrinə əsaslı şübhələr yaranıb.

Müəyyənləşdirilib ki, Rasif Ağayev və Ənvər İsayev İran İslam Respublikası vətəndaşları ilə əlbir olub maddi maraq müqabilində həmin ölkənin ərazisində olan xarici ölkə vətəndaşlarının qeyri-leqal yolla Azərbaycan Respublikasına keçmələrinin təşkil edilməsi barədə razılaşıb və bu məqsədlə Rasif Ağayev gecəgörmə cihazı və digər texniki avadanlıqlardan istifadə etməklə Yardımlı rayonunun Arvana kəndindən dövlət sərhədini pozaraq İran İslam Respublikasına keçib, orada olan əcnəbiləri dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənar gizli, qanunsuz Azərbaycan Respublikası ərazisinə keçirib, onları qabaqcadan əldə edilmiş razılığa uyğun olaraq, əvvəlcə Ənvər İsayevin Yardımlı rayonunun Arvana kəndində yerləşən evinə, oradan isə Bakı şəhərində özünə məxsus evə gətirib. Keçirilmiş əməliyyat tədbirləri zamanı hər iki şəxs, o cümlədən xarici ölkə vətəndaşları saxlanılıblar.

Faktla bağlı DTX-da aparılan cinayət işi üzrə Rasif Ağayev və Ənvər İsayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddəsi ilə məsuliyyətə cəlb olunub.

Hazırda cinayət işi üzrə istintaq davam edir.




## "Tesla bot"

**"Tesla" bu il avqustun 19-da "Tesla AI Day" adlı tədbir keçirəcək. Orada "Tesla Bot" adlı funksional robot sərgilənəcək.**

Şirkətdən bildirilib ki, bu, sərginin ikinci günü gerçəkləşəcək. Sözügedən tədbir barədə çoxlu sayda maraqlı anonslar verilir. Keçənilki nümayiş zamanı şirkət "Dojo" superkompüterini təqdim etmiş, öz elektromobillərində reallaşdırılacaq avtonom idarəetmə sistemi barəsində məlumatlar vermiş və "Tesla Bot"u ilk dəfə anons etmişdi.

"Tesla Bot"a "Optimus" kod adı verilib. Robotun hazırlanması şirkət üçün prioritet layihəyə çevrilib. İlk mərhələlərdə cihaz sadə və təkrarlanan tapşırıqları yerinə yetirəcək.

## Naqilsiz şarj sistemi

**Gələn il ABŞ-ın Detroyt şəhərində elektromobilləri naqilsiz şarjla təmin edən avtomobil yolu istifadəyə veriləcək. Sözügedən sistem avtobuslar, daha çox tıxaclardan əziyyət çəkənlər üçün faydalı olacaq.**



Layihə İsrailin "Electreon" şirkəti tərəfindən hazırlanıb. İlk test yolunun uzunluğu cəmi 1.6 kilometr nəzərdə tutulur. Yolun alt hissəsində şarj prosesi üçün nəzərdə tutulmuş induksiya boruları yerləşdiriləcək. Onlar öz növbəsində elektrik şəbəkəsinə qoşulacaqlar. İnduksiya borularından enerjinin əldə edilməsi üçün elektromobillərə xüsusi qəbuledici lazım olacaq. Bu sistem xüsusi qəbuledici olmadan çalışmır və ətrafdakı insanlar üçün heç bir təhlükə yaratmır. Elektromobilin bu cür yoldan nə qədər enerji əldə edəcəyi isə onun öz konstruksiyasından və hansı sürətlə hərəkət etməsindən asılı olacaq. Təbii ki, bu cür yol elektromobilin batareyasını çox qısa yol məsafəsində tam şəkildə şarj edə bilməyəcək. Lakin bununla belə o, ən yaxın şarj stansiyasına qədər enerji səviyyəsini təmin edəcək.

"Electreon" mühəndislərinin fikrincə, şarj üçün nəzərdə tutulmuş induksiya borularının ictimai nəqliyyat üçün ayrılmış yol xətlərində quraşdırılması daha məqsədəuyğundur. Belə ki, həmin yollarda nəqliyyat axını daimi olur. Bundan əlavə, bu sistem sayəsində elektromobil tıxacda dayandığı halda belə öz batareyasını şarj edə biləcək.

Şarj ödənişli olacaq. Proses bitdikdən sonra sürücü onun üçün təyin edilmiş qiymət göstəricisini əldə edəcək.

## "Apple"dan yeni prosessor




**"Apple" kompüterlər üçün nəzərdə tutulmuş fərdi "M1" prosessorunun təqdimatından 2 il sonra "M2" prosessorunu təqdim edib. Yeni prosessor ikinci nəsil 5 nanometrlik texnoloji proses əsasında hazırlanıb və bu səbəbdən də onun performansında diqqət çəkəcək səviyyədə yüksəliş var.**

"M2"-yə 20 milyard tranzistor daxildir. Bu isə öncəkindən 20 faiz daha çoxdur. "M2" də 8 nüvədən ibarətdir. Onlardan 4-ü yüksək performanslı (Firestrom), digər 4-ü isə enerji effektivliyi (Icestorm) nüvəsidir. Lakin "M2"yə inteqrasiya edilmiş qrafik çip 8 nüvə əvəzinə 10 nüvəyə malikdir. Bu isə öz növbəsində prosessorun qrafik çip performansını 35 faiz yüksəldib. Yeni prosessorun hesablama gücündən danışdıqda qeyd etmək lazımdır ki, onun performansı "M1" ilə müqayisədə 18 faiz yüksəlib. Prosessorun məlumatları ötürmə qabiliyyətinin sürəti də yüksəldilib. Bu göstərici saniyədə 100 GB və ya öncəkindən 50 faiz çoxdur. "M2" prosessorunu əldə etmiş ilk notbuklar 13.6 düym ekranlı yeni "MacBook Air" və 13 düym ekranlı "MacBook Pro" modelləridir.

"MacBook Air" yeni prosessoru ilə yanaşı, naqilsiz "MagSafe" şarj texnologiyasını, 2 ədəd "USB Type-C" girişini və naqilli qulaqlıqlar üçün nəzərdə tutulmuş ənənəvi 3.5 millimetrlik audiogirişi də əldə edib. Yeni "MacBook Air"in qalınlığı cəmi 11 millimetr, çəkisi isə 1.22 kiloqramdır. Nazik çərçivələr hesabına yeni notbukun ekran ölçüsü bir qədər böyüyüb. Ekranın yuxarı hissəsində ön kamera üçün nəzərdə tutulmuş çıxıntı var. Notbukda passiv soyutma sistemi də reallaşdırılıb, başqa sözlə, soyutma pərləri yoxdur.

Notbuk həmçinin "Magic Keyboard" klaviaturasına sahibdir və yandırıb-söndürmə düyməsinə "Touch ID" texnologiyası inteqrasiya edilib. Yeni "MacBook Air" sürətli şarj texnologiyasının dəstəyi sayəsində bir dəfə şarj olunandan sonra 18 saat fasiləsiz işləyir. Həm də o, bunun hesabına 50 faiz enerjini 30 dəqiqəyə yığa bilir. "MacBook Air 2022"-yə 4 ədəd səsgücləndirici inteqrasiya edilib.

"MacBook Pro 2022" xarici görünüşcə 2020-ci ildə satışa çıxmış "M1" prosessorlu "MacBook Pro"dan fərqlənmir. Hətta yeni təqdim edilmiş "MacBook Pro"da sensorlu "Touch Bar" paneli də olduğu kimi qalıb. Əsas dəyişiklik texniki özəlliklərlə bağlıdır. Belə ki, onun batareyası bir dəfə şarj olunandan sonra 20 saat çalışır. Bundan əlavə, onun soyutma üçün nəzərdə tutulmuş bir ədəd pəri var.

Yeni məhsullar iyulda satışa çıxarılacaq.

## Blutuzla izlənmə

Kaliforniya Universitetinin alimləri "Bluetooth Low Energy" (BLE) interfeysinin unikal siqnalları vasitəsilə insanın hərəkətini izləmək üsulunu aşkar ediblər. Bu unikal siqnallar hətta smartfonun blutuz vasitəsilə aktiv qoşulmaya sahib olmadığı zamanlarda da generasiya edilir.

"BLE" çipin istehsalçısından və modelindən asılı olmayaraq, onun quraşdırılmış olduğu smartfonda generasiya edilən siqnalların detallı analizi vasitəsilə hər bir çip üçün unikal olan rəqəmsal izi təyin etmək mümkündür. Alimlər qeyd edirlər ki, smartfon üzərindən generasiya edilən bu cür "BLE" izin olduğu halda smartfon sahibinin qeyd edilmiş nöqtədə olub-olmadığını təyin etmək mümkündür. Bunun üçün hətta hansısa qəliz təchizata malik olmaq lazım deyil, sadəcə, siqnal qəbuledici kifayətdir.

Tədqiqatçı mütəxəssislər bu nəzəriyyəni reallaşdırılmış testlərlə sübut ediblər. Onlar insanların gur olduğu yerlərdə "BLE" izləri identifikasiya ediblər və testlərdə iştirak etmiş könüllülərin yerdəyişməsini təyin etməyi bacarıblar. Məlumatda qeyd edilib ki, bu və ya digər şəxsin bu üsulla izlənməsinin bir sıra texniki çətinlikləri var. Belə ki, siqnalın qəbuledicisi "BLE" siqnalın əhatə dairəsində olmalıdır. Adətən, bu göstərici 10 metr olur. "BLE" izinin identifikasiyasını reallaşdırmaq üçün lazımi təchizatı texniki hazırlıq görmüş şəxs idarə etməlidir. Bundan əlavə, unikal siqnal izinə hava temperaturu kimi xarici faktorlar təsir göstərə bilərlər.

## "Microsoft Explorer" tarix oldu

İstifadəyə verildiyi vaxtdan 25 il sonra "Microsoft" şirkəti "Internet Explorer" brauzerinə dəstəyini rəsmi şəkildə dayandırıb. Bundan sonra "Windows" əməliyyat sistemində onun yerini tutacaq standart brauzer qismində "Microsoft Edge" çıxış edəcək.

Bu haqda məlumat şirkətin bloqunda yerləşdirilsə də, formal olaraq "Microsoft" ondan hələ 2016-cı ildə imtina etmişdi. Nəticədə "Internet Explorer" tədricən əməliyyat sisteminin komponentinə çevrilmiş, onun yüklənmə imkanı deaktiv edilmiş və ümumiyyətlə, yeni kompüterlərdə sistem daxilində gizlədilmişdi. 2016-cı ildən şirkət aktiv şəkildə "Microsoft Edge" brauzerini inkişaf etdirir.

Kompüterlərə quraşdırılmış "Internet Explorer" kopyaları müəyyən müddət istifadəçiləri "Edge"yə yönləndirəcəklər. Lakin növbəti sistem yenilənməsindən sonra artıq köhnəlmiş brauzerə giriş mümkün olmayacaq. Bununla belə, "Microsoft"dan bildiriblər ki, "Internet Explorer" "Windows 10"un LTSC versiyasında çalışmağa davam edəcək.

Qeyd etmək lazımdır ki, "Microsoft"un aktual brauzeri olan "Microsoft Edge" məşhurluq reytinqinə görə dünya üzrə üçüncü yeri tutur. Həmin reytinqdə birinci yeri "Google Chrome", ikinci yeri isə "Apple Safari" tutur.

## Oyun həvəskarları üçün yenilik



"Canyon" şirkəti yeni oyun aksesuarları seriyasını təqdim edib. Şirkətin istehsal etdiyi oyun üçün kompüter "siçan"ları, klaviaturalar, qarniturlar və kreslolar həm oyun həvəskarlarının tələblərinə cavab verir, həm də gündəlik istifadə üçün yararlıdır.

"GM20" oyun "siçan"ının hərəkəti ən son innovasiyaları özündə ehtiva edir. İnanılmaz dərəcədə yüngül korpus, 1000-12000 DPI diapazonuna malik "Pixart 3360" peşəkar optik sensor, proqramlaşdırıla bilən 7 düymə, parametrlərin köklənməsi istifadəçilər üçün geniş imkanlar yaradır. Oyun "siçan"ının forması sağ əllə istifadə edilir. 10 effektə malik "RGB" altişığı oyun prosesini daha maraqlı edir. İnnovativ mexanizmi sayəsində bu mexaniki klaviatura oyunçulara öz bacarıqlarını tam şəkildə göstərmək imkanı yaradır.

Cihazın son dərəcə möhkəm olan 104 düyməsi yüksək həssaslığa və super sürətə malikdir. Düymələr 60 milyondan çox toxunuş üçün nəzərdə tutulub, kompakt klaviatura isə oyunu komfortlu etməklə yanaşı, masada az yer tutur. Klaviaturada klavişlərin əsas blokunun altında əlavə 7 düymə, o cümlədən fırlatma çarxı yerləşir. Onlardan istifadə etməklə musiqi və videotrekləri idarə etmək, səsin ucalığını, həmçinin klavişlərin alt işıqlarını tənzimləmək mümkündür. Yeri gəlmişkən, hər bir klavişin ayrı-ayrılıqda işıqlandırılması gözlərə rahatlıq verir, alt işıqların 21 növü isə klaviaturanı oyunun ayrıca elementinə çevirir. "Double injection" texnologiyası sayəsində klavişlərin üzərindəki simvollar heç vaxt silinmir.

"Windows / İşə sal" düyməsinin bloku oyun vaxtı əlavə dəstəyi təmin edir, örtüklü kabel siqnalın yüksək sürətlə və dəqiq ötürülməsini təmin edir. Bu qarnitur oyuna tam şəkildə daxil olmağı, uzunmüddətli sessiyalar zamanı ağırlıq hissi yaşamamağı təmin edir. "Virtual Surround 7.1" texnologiyası səsə əlavə həcm verir və elə təəssürat yaranır ki, sanki səs oyunçunun ətrafında 360 dərəcə radiusda müxtəlif mənbələrdən gəlir. Belə səsləndirmə mənbənin istiqamətini maksimum dəqiqliklə əks etdirir. Rahat tənzimlənən mikrofon səsi əla ötürür, iki metrlik kabel isə oyunçuya kompüterdən rahat məsafədə oturmağa imkan verir. Optimal forma, dəbli və eyni zamanda nəzərə çarpmayan dizayn, səs gurluğu səviyyəsinin və mikrofonun formasının tənzimlənməsi - bütün bunlar istənilən növ oyun həvəskarlarını sevindirəcək.

Yeni model kreslo maksimum funksional olmasını istəyən geymerlər üçündür. 1.5 millimetr qalınlığında metaldan hazırlanmış çərçivəsi və 60 millimetrlik diametrə malik təkərləri olan möhkəm beşguşəli dayaq kreslonun rahatlığını və uzunömürlülüyünü təmin edir. Ekoloji təmiz dəridən hazırlanmış üzlüyün altındakı yaddaş köpüyü uzunmüddətli oyun sessiyalarından maksimum zövq almaq imkanı yaradır. Stulun açılan söykənəcəyini 90 və 165 dərəcə arasında istənilən bucaq altında saxlamaq mümkündür. Bu isə intensiv döyüşlərdən sonra rahatlanmağa və dincəlməyə kömək edir. Əllər üçün əlavə komfortu təmin etmək məqsədilə kreslonun qoltuqluqları yuxarı-aşağı, irəli-geri və 15 dərəcə içəri-çölə hərəkət etdirilə bilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### gəmiləri üçün naviqasiya avadanlıqlarının satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 iyul 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### gəmiləri üçün konservləşdirilmiş qəza su və qəza qida rasionlarının satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 iyul 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### ilk yardım çantalarının satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 08 iyul 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## " ERA" ATSC-nin səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti 29 iyul 2022-ci il saat 11:00-da səhmdarlarını növbədənkənar ümumi yığıncağına dəvət edir.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

1. " ERA" ATSC-nin təsisçisinin qərarı ilə qanuni təmsilçilik funksiyasına malik direktor vəzifəsinin seçilməsi.
2. "ERA" ATSC -nin nizamnaməsinin yeni redaksiyada ( 2-ci redaksiyada) təsdiq edilməsi.
3. " ERA" Açıq Tipli Səhmdar Cəmiyyətinin ( bundan sonra "Cəmiyyət ") adından tipli sözünün çıxarılması.
4. Nizamnaməyə dəyişiklik edilməsi ilə əlaqədar və dəyişikliklərin dövlət qeydiyyatına alınması ilə bağlı səlahiyyətli şəxsin müəyyən edilməsi və kommersiya qurumunun dövlət reyestrindən çıxarışının alınmasının təşkili.
5. Digər məsələlər.

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

**Ünvan: Nərimanov rayonu, İslam Abışov küçəsi, 20/94**

***Rəhbərlik***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi cəmiyyətin Meliorasiya-irriqasiya obyektlərinin qeydiyyatı və suların istifadəsinə mühafizəsinə nəzarət idarəsinin rəisi Mahir Qasımova anası

**TƏRLAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi meliorasiya və su təsərrüfatı sahəsinin veteranı Mətləb Quliyevə həyat yoldaşı

**OFELİYA NADİR QIZI ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5975**
**Sifariş 1733**
**Qiyməti 40 qəpik**